ISSN 1028-8546

Volume XX, Number 3
Section: Az
November, 2014

Azerbaijan Journal of Physics

Fizika



www.physics.gov.az

G.M. Abdullayev Institute of Physics
Azerbaijan National Academy of Sciences
Department of Physical, Mathematical and Technical Sciences

Published from 1995
Ministry of Press and Information
of Azerbaijan Republic,
Registration number 402, 16.04.1997

ISSN 1028-8546
vol. XX, Number 3, 2014
Series: Az

Azerbaijan Journal of Physics

FIZIKA

G.M.Abdullayev Institute of Physics
Azerbaijan National Academy of Sciences
Department of Physical, Mathematical and Technical Sciences

HONORARY EDITORS

Arif PASHAYEV

EDITORS-IN-CHIEF

Nazim MAMEDOV Chingiz QAJAR

SENIOR EDITOR

Talat MEHDIYEV

INTERNATIONAL REVIEW BOARD

Ivan Scherbakov, Russia
Kerim Allahverdiyev, Azerbaijan
Mehmet Öndr Yetiş, Turkey
Gennadii Jablonskii, Buelorussia
Rafael Imamov, Russia
Vladimir Man'ko, Russia
Eldar Salayev, Azerbaijan
Dieter Hochheimer, USA
Victor L'vov, Israel
Vyacheslav Tuzlukov, South Korea
Majid Ebrahim-Zadeh, Spain
Firudin Hashimzadeh, Azerbaijan
Anatoly Boreysho, Russia
Mikhail Khalin, Russia
Hasan Bidadi, Tebriz, East Azerbaijan, Iran
Natiq Atakishiyev, Mexico
Maksud Aliyev, Azerbaijan
Iskender Djafarov, Azerbaijan
Arif Hashimov, Azerbaijan
Vali Huseynov, Azerbaijan
Javad Abdinov, Azerbaijan
Bagadur Tagiyev, Azerbaijan
Tayar Djafarov, Azerbaijan
Talat Mehdiyev, Azerbaijan
Emil Guseynov, Azerbaijan
Ayaz Baramov, Azerbaijan
Tofiq Mammadov, Azerbaijan
Salima Mehdiyeva, Azerbaijan
Shakir Nagiyev, Azerbaijan
Rauf Guseynov, Azerbaijan
Almuk Abbasov, Azerbaijan
Yusif Asadov, Azerbaijan

TECHNICAL EDITORIAL BOARD

Senior secretary Elmira Akhundova, Nazli Guseynova, Sakina Aliyeva,
Nigar Akhundova, Elshana Aleskerova

PUBLISHING OFFICE

131 H.Javid ave, AZ-1143, Baku
ANAS, G.M.Abdullayev Institute of Physics

Tel.: (99412) 439-51-63, 439-32-23
Fax: (99412) 447-04-56
E-mail: jophphysics@gmail.com
Internet: www.physics.gov.az

It is authorized for printing:

Published at "**SƏRQ-QƏRB**"
17 Ashug Alessger str., Baku
Typographer : Aziz Gulaliyev

Sent for printing on: __.__. 201_
Printing approved on: __.__. 201_
Physical binding:_____
Number of copies:_____200
Order:_____

KİMYƏVİ ÇÖKDÜRMƏ PROSESİNDƏ ÇÖKÜNTÜ ŞƏKLİNDƏ AYRILAN PbS BİRLƏŞMƏSİNİN OPTİK XASSƏLƏRİ

O.R. ƏHMƏDOV, M.H. HUSEYNƏLİYEV
AMEA Naxçıvan Bölməsi, AZ-7700 Naxçıvan ş., H. Əliyev pr. 76.

N. M. ABDULLAYEV
Azərbaycan MEA- nın H.B. Abdullayev adına Fizika İnstitutu,
AZ-1143, Bakı ş., pr. H. Cavid, 131

Kimyəvi çökdürmə yolu ilə PbS nazik təbəqəsinin alınması prosesində məhluldan çöküntü şəklində ayrılan PbS narın tozunun termik emaldan əvvəl və 300°C-də iki saat muddətində aparılan termik emaldan sonra udma spektri tədqiq edilmişdir. PbS-ə məxsus spektr infraqırmızı oblast üçün səciyyəvi olan bir çox funksional qrupların piklərinin fonundan ayırd edilmişdir. Termik emaldan sonra PbS narın tozunun qadağan olunmuş zonasının eni $E_g=0.37$eV olmuşdur.

UOT: 537. 533. 3; 541. 1.
Açar sözlər: kimyəvi çökdürmə, nazik təbəqə, funksional qruplar, udma spektri.

Qurğuşun sulfid (PbS) birləşməsi və nazik təbəqəsi infraqırmızı detektor materialı kimi [1, 2], nanotexnologiyada tətbiq imkanlarına görə [3], fototermik çeviricilərdə selektiv örtük materialı kimi [4] və günəş elementlərində [5] istifadəsinə görə son vaxtlar intensiv şəkildə öyrənilməyə başlanmışdır. Bütün digər yarımkeçiricilərdən fərqli olaraq PbS-in qadağan olunmuş zonasının temperatur əmsalı müsbətdir [6]. Bundan başqa, PbS-in nazik təbəqəsi alınarkən, onun CdS-lə birlikdə çökdürülməsi şəraitində tərkibdə PbS-in faizindən asılı olaraq tamamilə yeni xassələrə malik yarımkeçirici material almaq mümkündür [7, 8].

PbS nazik təbəqəsinin kimyəvi çökdürmə yolu ilə alınması üçün istifadə olunan məhlul aşağıdakı qaydada hazırlanmış məhlulların hər birindən eyni qədər (həcm ölçüsü ilə) götürülməklə hazırlanır: qurğuşun asetat $Pb(CH_3COO)_2$-0,07 M; natrium hidroksid (NaOH)-0,3 M; trietanolamin $N(CH_2CH_2OH)_3$-0,06 M; tiomoçevina $(NH_2)_2CS$-0,17 M.

Kimyəvi çökdürmə prosesi 60 ml-lik laboratoriya stəkanının içərisində 40°C-aparılmışdır. Məhlulun içərisinə əvvəlcədən şaquli vəziyyətdə şüşə altlıq yerləşdirilir və bütün proses müddətində məhlul maqnit qarışdırıcı ilə daima qarışdırılır. 20 dəqiqədən sonra şüşə altlıq məhluldan çıxarılır və distillə suyunda yuyularaq qurudulur.

Bu prosesdən sonra şüşə üzərində yaxşı adgeziyaya malik, bircins, tünd qəhvəyi rəngli PbS nazik təbəqəsi alinmişdir. Məhluldan çöküntü şəklində ayrılan PbS narın tozu dəfələrlə distillə suyunda yuyulduqdan sonra qurudulmuşdur. Optik ölçmələrdə bu tozdan istifadə edilmişdir.

Şüşə altlıq üzərində alınmış PbS nazik təbəqəsinin optik xassələrini öyrənmək üçün "Nikolet İS-10" spektrofotometrindən istifadə edilmişdir. Lakin şüşə altlığın fonundan PbS nazik təbəqəsininin spektrini ayırd etmək mümkün olmadığından kimyəvi çökdürmə prosesində məhluldan çöküntü şəklində ayrılan PbS narın tozunun optik xassələri öyrənilmişdir.

PbS narın tozunun dayanıqlı strukturunun alınması üçün 300°C-də 2 saat müddətində termik emal prosesi aparılmışdır.

Şəkil 1-də PbS narın tozunun termik emaldan əvvəl və sonra udma spektrləri göstərilmişdir.



Şəkil 1. PbS narın tozunun termik emaldan əvvəl (1) və sonra (2) udma spektrləri

Məlum olduğu kimi infraqırmızı spektr oblastında bir sıra funksional qruplar udma spektrində müəyyən piklərin ortaya çıxmasına səbəb olur. Şəkil 1-də böyük enerjilər oblastında aşkar şəkildə müşahidə olunan 3430sm^{-1}-ə uyğun pik PbS tozunun səthi tərəfindən udulan suyun O-H grupuna uyğundur və suyun səth tərəfindən udulması faktı həm də bu qrupun 1627 sm^{-1}-ə uyğun pikin olması ilə təsdiq olunmuşdur. Hər iki pikin hündürlüyü termik emaldan sonra daha yüksək olur. 1425 sm^{-1}-də müşahidə edilən zəif pik prosesdə istifadə edilən metanolun CH_3 rəqsləri hesabına ortaya çıxır. Bu fikir həm də 3000 sm^{-1}-dən bir qədər kiçik qiymətlərdə metanolun CH_3 rəqslərinə aid pikin olması ilə təsdiq olunmuşdur. Metanol qrupunun C-O rəqsləri intensiv 1110 sm^{-1} pikini verir. C-H rəqsləri isə 620sm^{-1} pikinin ortaya çıxmasına səbəb olur.

Bu piklərin fonundan yalnız PbS birləşməsinə aid olan udulma ayird edildikdən sonra, PbS narın tozunun termik emaldan əvvəl və termik emaldan sonra $\alpha(\hbar\nu)$ asılılıqları qurulmuşdur (şəkil 2).



Şəkil 2. PbS narın tozunun termik emaldan əvvəl (1) və sonra (2) $\alpha(\hbar\nu)$ asılılıqları

Bildiyimiz kimi, yarımkeçiricinin qadağan olunmuş zonasının enini hesablamaq üçün Tauç düsturundan istifadə edilir [9]:

$$(\alpha\hbar\nu)^{\frac{1}{n}} = A(\hbar\nu - E_g)$$

Burada A - sabit ədəddir, E_g- yarımkeçiricinin qadağan olunmuş zonasının eni, $\hbar\nu$ -fotonun enerjisidir. n-isə keçidin tipindən asılı olaraq dörd müxtəlif qiymət ala bilər. Belə ki, icazə verilmiş düz keçid üçün $n = 1/2$, icazə verilmiş çəp keçid üçün $n=2$, qadağan olunmuş düz keçid üçün $n = 3/2$, qadağan olunmuş çəp keçid üçün $n=3$ [10].

PbS düzzonalı yarımkeçirici olduğundan [11] bu birləşmə üçün $n = 1/2$ münasibəti doğrudur.

Bu birləşmənin qadağan olunmuş zonasının enini tapmaq üçün $(\alpha\hbar\nu)^2$ -nın $\hbar\nu$ -dən asılılıq əyriləri qurulmuşdur (şəkil 3).



Şəkil 3. PbS yarımkeçirici birləşməsi üçün $(\alpha\hbar\nu)^2 = f(\hbar\nu)$ asılılığı: 1-termik emaldan əvvəl; 2- termik emaldan sonra

Bu əyrilərdən düz xətt oblastının absis ($\hbar\nu$) oxu ilə kəsişməsinə əsasən PbS narın tozunun termik emaldan əvvəl (1) və termik emaldan sonra (2) qadağan olunmuş zonalarının eni müəyyən edilmişdir. Bu qiymətlər uyğun olaraq $E_g=0.25$ eV və $E_g=0.37$eV olmuşdur. Termik emaldan sonra PbS üçün aldığımız bu qiymət ədəbiyyat göstəriciləri ilə üst-üstə düşür [11].

Termik emaldan sonra PbS-in qadağan olunmuş zonasının eninin belə dəyişməsi onu göstərmişdir ki, termik emal prosesi birləşmənin strukturunun formalaşmasında çox mühüm rol oynayır.

[1] *M.S. Ghamsari, M.K. Araghi and S.J.Farahani. Mater. Sci. Eng. B*, 133, 2006, 113.
[2] *H. Zhang, D. Yang and J. Niu*. J. Cryst.Growth, 246, 2002, 108.
[3] *A.M. Malyarevich et al.*. J. Non-Cryst. Solids, 353, 2007, 1195.cvb
[4] *T.K. Chaudhuri*. Int. J. Ener. Res., 16, 1992, 481.
[5] S. Gunes et al., Solar Energy Mater. Solar Cells, 91, 2007, 420.
[6] *R.K. Das, S. Sahoo and G.S. Tripathi*. Semicond. Sci. Technol., 19, 2004, 433.
[7] *M. Gugliemi et al.*. J. Sol-Gel Sci. Technol., 11, 1997, 229.
[8] *H. Li et al.*. Proc. SPIE, 3899, 1999, 376.
[9] *J.Tauc* (Ed.), Amorphous and Liquid Semiconductors, Plenum Press, New York, 159, 1974.
[10] *J.I.Pankove*. Optical Process in Semiconductors, New Jersey, USA 34, 1971.
[11] *J.J. Valenzuela-Jauregui, R. Ramrez-Bon, A. Mendoza-Galvan, and M. Sotelo-Lerma*. Thin Solid Films, 441, 2003.

O. R. Ahmadov, M. H. Huseynaliev, N. M. Abdullaev

OPTICAL PROPERTIES OF THE COMPOUND PbS OBTAINED AS A PRECIPITATE IN CHEMICAL DEPOSITION PROCESSES

The absorption spectrum of PbS powder obtained as a precipitate from solution in the preparation of PbS thin films by chemical vapor deposition before and after the heat treatment carried out during two hours at 300°C. The absorption spectrum relating to PbS was isolated from background peaks plurality of functional groups which are characteristic for the infrared region. The band gap width of the powder after heat treatment $E_g=0.37$eV.

О. Р. Ахмедов, М. Г. Гусейналиев, Н.М. Абдуллаев

ОПТИЧЕСКИЕ СВОЙСТВА СОЕДИНЕНИЯ PbS ПОЛУЧЕННОГО В ВИДЕ ОСАДКА В ПРОЦЕССЕ ХИМИЧЕСКОГО ОСАЖДЕНИЯ

Исследован спектр поглощения порошка PbS полученного в виде осадка из раствора при получении тонкой пленки PbS методом химического осаждения до и после термической обработки проводимой при 300°C в течение двух часов. Спектр поглощения относящийся к PbS был выделен из фона пиков множества функциональных групп, которые характерны для инфракрасной области. Ширина запрещенной зоны порошка после термической обработки составляла $E_g=0.37$eV .

Qəbul olunma tarixi: 05.06.2014

OPTİK İNFORMASİYANIN SAXLANILMASI VƏ İRİDİUM SİLİSİD NAZİK TƏBƏQƏSİNDƏ KVANT ÖLÇÜ EFFEKTLƏRİ

E.Ə. KƏRİMOV
Milli Aerokosmik Agentliyi Təbii Ehtiyatların Kosmik Tədqiqi İnstitutu
AZ 1106, S.S. Axundov küç. 1, korpus 2

S.N. MUSAYEVA
Azərbaycan Texniki Universiteti
Az 1100, H.Cavid pr.25

İşdə optik informasiyanın uzun müddət saxlanması üçün yeni material kimi iridium silisidin (IrSi) tətbiqi təklif olunmuşdur.

PACS: 73.40.NS; 73.40.Sx; 78,20 e.
Açar sözlər: energetik səviyyələr, iridium silisidi, kvant effektləri, keçiricilik zonası, Sandomirski nəzəriyyəsi, valent zona.

Aparılan tədqiqatlar göstərir ki, IrSi təbəqəsinin qalınlığı və ya diametri elektronun de Droyl dalğa uzunluğu ilə müqayisə edilən olarsa, yeni sinif ölçü effektləri – kvant ölçü effektləri müşahidə olunur. Bu ölçü effektləri bir qayda olaraq hamar səthə malik və yük daşıyıcıları nisbətən böyük de Broyl dalğa uzunluğu olan yarımmetal və ya yarımkeçirici təbəqə və məftillərdə aşkar edilir. Kvant ölçü effektləri elektronun kvaziimpulsunun kvantlanması nəticəsində yaranır. Nazik təbəqədə kvaziimpulsun səthə perpendikulyar olan komponenti kvantlanır və elektron hallar şəkil 1-də göstərildiyi kimi sferik Fermi səthi kimi diskret təbəqələr sistemi yaradır.



Şəkil. 1. Nazik təbəqədə (IrSi) elektron hallarının laylara ayrılması.

İridium (Ir) silisiumla reaksiyaya girərək iridium silisidi (IrSi) yaranır və bu zaman yaxşı optik kontrastı təmin edən əksolunma əmsalının güclü dəyişməsi baş verir. Cədvəldə metallar və müxtəlif silisidlər üçün optik əksolunma əmsalı (R) və onların fərqinin (ΔR) müqayisəsi göstərilmişdir [1].

Cədvəl.
Metalların və silisidlərin optik əksolunma əmsalları.

Metal	Qalınlıq, nm	R %	Silisid	R_1, %	ΔR, %
Pd	200	81	Pd_2Si	28	53
Pt	130	83	PtSi	44	39
Ta	200	58,5	$TaSi_2$	32,5	26
Rh	200	67	RhSi	37	30
V	300	48,5	VSi_2	30	18,5
Co	SO	68	CoSi	47	21

Energetik səviyyələrin laylara belə ayrılması təbəqənin kinetik və termodinamik xarakteristikalarının onun qalınlığından periodu de Broyl dalğasının yarısına bərabər olan ossilyator asılılığına gətirir. Enerjinin kvantlanmasının nəticəsi nəzəri olaraq termodinamik xassələrə, elektrokeçiriciliyə, qalvanomaqnit hadisələrə, paramaqnit nüfuzluğu, optik xassələr, tunel hadisələri və ifrat keçiriciliyə tətbiq edilərək tədqiq edilmişdir [2]. Bütün bu hesablamalarda təbəqə konfiqurasiyası seçilmiş, nazik məftillərdə kvant ölçü effektləri nəzəri olaraq (həm də eksperimental), çox güman ki, tətqiq edilməmişdir.

Yarımmetal və ya yarımkeçirici təbəqənin elektrik müqaviməti kvant ölçü effekti şəraitində Sandomirski tərəfindən ölçülmüşdür [3]. Sandomirski nəzəriyyəsində elektron və deşiklərə səthi dibə və sonsuz böyük divarlara malik potensial çuxurda hərəkət edən sərbəst hissəciklər kimi baxılır. Daşıyıcıların kütləsi uyğun həcmi effektiv m_e və m_h – kütlələrə bərabər hesab olunur. Kvant ölçü effekti şəraitində keçiricilik və valent zonaları diskret təbəqələrə parçalanır. Keçiricilik zonasının ən kiçik enerjisi yuxarıya doğru massiv nümünənin keçiricilik zonasının dibinə nəzərən $\Delta\varepsilon_e = \hbar^2\pi^2/2m_e d^2$, valent zonanın ən böyük enerjisi isə massiv nümünənin valent zonasının tavanına nəzərən $\Delta\varepsilon_h = \hbar^2\pi^2/2m_h d^2$ qədər sürüşür. Əgər təbəqənin qalınlığı kifayət qədər kiçikdirsə, $\Delta\varepsilon_e+\Delta\varepsilon_h$ cəmi massiv yarımmetalın zonalarının örtülməsi kəmiyyətinə bərabər ola bilər və yarımmetal yarımkeçiriciyə çevrilər. Bu effekt şəkil 2-də təsvir edilmişdir. Zonaların örtülməsinin yox olması zamanı kritik qalınlıq:

$$\overline{d} = \frac{\pi\hbar}{\left(2M\Delta\right)^{\frac{1}{2}}}. \qquad (1)$$

Burada, $M^{-1}=m_e^{-1}+m_h^{-1}$, Δ – isə massiv yarımmetalın zonalarının örtülməsidir. Əgər $m_h >> m_e$ olarsa 1 formulu aşağıdakı şəklə düşər:

$$\overline{d} = \frac{\pi\hbar}{\left(2m_e\varepsilon_F\right)^{\frac{1}{2}}}. \qquad (2)$$

Burada, ε_F – elektronun Fermi enerjisidir. (2) formulundakı $\overline{d}$ - kəmiyyəti göründüyü kimi, elektronun de Broyl dalğasının uzunluğunun yarısıdır. Zonaların örtülməsinin yox olması təbəqənin elektrik və optik xassələrinin münasibətlərində mühüm əhəmiyyət kəsb edir. Kvant ölçü effektinin müşahidə olunması üçün $\tau >> \hbar/\Delta\varepsilon_{e,h}$ şərti yerinə yetirilməlidir. Burada: $\tau_{e,h}$ – yükdaşıyıcıların həm həcmdə və həm də səthdə səpilməni nəzərə alan relaksasiya zamanıdır.



Şəkil 2. Kvant ölçü effekti şəraitində enerji zonaları: ştrixlənmiş oblastlar elektron və deşiklərlə dolmuşdur. K_x – kvaziimpuls komponenti təbəqənin müstəvisində yerləşir. a) massiv yarımmetal: zonalar Δ – qədər örtülür; b) nazik təbəqə $d > \overline{d'}$ olduqda; c) nazik təbəqə $d < \overline{d'}$ olduqda, zonaların örtülməsi yox olur.

Beləliklə, müəyyən olunmuşdur ki, energetik səviyyələrin laylara ayrılması təbəqənin termodinamik və kinetik xarakteristikalarının onun qalınlığından de Broyl dalğa uzunluğunun yarısına bərabər periodlu ossillyator asılılığa gətirir.

[1] *И.Е. Тамм.* Основы теории электричества. М., Физматлит, 2003, 615 с.

[2] *Е.М. Коган, В.В. Устинов.* Электропроводность тонких металлических пленок при малоугловом электрон-фононном рассеянии, "Физ. металлов и металловедение", 1982, т. 54, с. 258.

[3] *В.Б. Сандомирский.* Радиотехника и электроника 7, 1971.

E.A. Kerimov, S.N. Musaeva

OPTICAL INFORMATION STORAGE AND QUANTUM SIZED EFFECTS İN THE İRİDİUM SİLİCİDE FİLM

In article new application of the iridium silicide (IrSi) as material for durable storage of optical information is suggested. It is showed, that foliation of energetic levels is reason for oscillator dependence of thermodynamic and kinetic film characteristics from its thickness with period equal to de Broglie half-wavelength.

Э.А. Керимов, С.Н. Мусаева

ХРАНЕНИЕ ОПТИЧЕСКОЙ ИНФОРМАЦИИ И КВАНТОВЫЕ РАЗМЕРНЫЕ ЭФФЕКТЫ В ПЛЕНКЕ СИЛИЦИДА ИРИДИЯ

При исследованиях выявлено, что расслоение энергетических уровней приводит к осцилляторной зависимости термодинамических и кинетических характеристик плёнки от ее толщины с периодом, равным половине Дебройлевской длины волны.

Qəbul olunma tarixi: 05.06.2014

SU-KBr SİSTEMİNİN STRUKTUR XÜSUSİYYƏTLƏRİ

E.Ə. MƏSİMOV, B.G. PAŞAYEV, H.Ş. HƏSƏNOV, Ç.İ. İBRAHİMOV
Bakı Dövlət Universiteti, Fizika fakültəsi
E-mail: p.g.bakhtiyar@gmail.com

İşdə KBr-in sulu məhlulunun viskozimetr, piknometr və İQ spektrometr metodları ilə 283,15-333,15 K temperatur və 0.01-0.07 molyar hissə konsentrasiya intervalında struktur xüsusiyyətləri araşdırılmışdır. Təcrübi nəticələrdən istifadə edərək tədqiq olunan sistemin baxılan temperatur və konsentrasiyalarda özlü axınının aktivləşmə parametrləri, məhlulda KBr-in parsial molyar həcmi, su molekulları arasındakı hidrogen rabitəsinin enerjisi və uzunluğu hesablanmışdır və bu parametrlərin konsentrasiyadan asılılıqları təhlil olunmuşdur. Alınan nəticələrin təhlili göstərir ki, su-KBr sistemində KBr-in konsentrasiyasının artması ilə suyun strukturu dağılır.

PACS: 77.22.Ej, 64.75.Bc, 31.70.Dk, 61.20 Og.
Açar sözlər: KBr, özlü axının aktivləşmə parametrləri, parsial molyar həcm, hidrogen rabitəsinin enerjisi.

Məlumdur ki, sulu məhlulun fiziki xassələri onun komponentlərinin növündən və konsentrasiyasından asılıdır. Bu xassələr su molekulları, həllolan maddə molekulları və su-həllolan maddə molekulları arasında baş verən qarşılıqlı təsirlərlə əlaqədardır. Belə molekulyar qarşılıqlı təsirlər hidrogen, ion-dipol və digər növ rabitələrin yaranması hesabına məhlulun özlü axını, həcmi, spektroskopik və s. xassələrinə təsir edir. Müasir təsəvvürlərə görə su polyar mayedir və maye suyun kvazistrukturuna malik olmasına əsas səbəb molekullararası hidrogen rabitələrinin olmasıdır. Hidrogen rabitələri kooperativ xarakterə malikdir və bunun nəticəsində suda müxtəlif ölçülü klasterlər yaranır. Klasterləri təşkil edən molekulların sayı və ya klasterlərin ölçüləri böyük olduqca su daha strukturlaşmış halda olur. Suda həllolan maddələr kimyəvi tərkibindən və quruluşundan asılı olaraq suyun strukturuna müxtəlif cür təsir edirlər: bir çox maddələr suda su molekulları arasında mövcud olan hidrogen rabitələrini zəiflətdikləri halda, digərləri bu rabitələri daha da gücləndirirlər. Bioloji sistemlərdə su mühüm rol oynadığından sulu məhlullarda struktur xüsusiyyətlərinin tədqiqi müasir fiziki-kimyada, biofizikada böyük əhəmiyyət kəsb edir.

İşdə su-KBr sisteminin 283,15-333,15 K temperatur və KBr-in 0.01-0.07 molyar hissə konsentrasiyası intervalında dinamik özlülüyü və sıxlığı ölçülmüş, həmçinin məhlulların İQ oblastda udma spektrləri çəkilmişdir. Baxılan sistemin özlü axın və həcmi xassələrinin, həmçinin İQ oblastda udma spektrlərinin təhlili əsasında struktur xüsusiyyətləri araşdırılmışdır. Bu məqsədlə məhlulun özlü axınının aktivləşmə Gibbs enerjisinin ($\Delta G_\eta^{\neq}$), özlü axınının aktivləşmə entalpiyasının ($\Delta H_\eta^{\neq}$), özlü axınının aktivləşmə entropiyasının ($\Delta S_\eta^{\neq}$), məhlulda KBr-in parsial molyar həcminin ($\tilde{V}$), su molekulları arasındakı hidrogen rabitəsinin enerjisinin (E_H) və uzunluğunun (R_H) konsentrasiyadan asılılıqları təhlil olunmuşdur.

TƏCRÜBİ HİSSƏ

Tədqiqat obyekti və metodları. Tədqiqat obyekti olaraq müxtəlif konsentrasiyalı KBr-in sulu məhlulu götürülmüşdür. İstifadə olunmuş KBr kimyəvi safdır. Məhlulların hazırlanmasında bidistillə edilmiş sudan istifadə olunmuşdur.

İşdə özlülük kapilyar viskozimetrlə, sıxlıq isə piknometrlə ölçülmüşdür. Məhlulların İQ oblastda udma spektrləri "Perkin Elmer 2000" firmasının istehsalı olan "Spectrum One" cihazında 6000-7800 sm^{-1} tezlik intervalında çəkilmişdir.

Özlü axının aktivləşmə parametrləri ($\Delta G_\eta^{\neq}$, $\Delta H_\eta^{\neq}$, $\Delta S_\eta^{\neq}$) aşağıdakı ifadələrlə hesablanmışdır [1, 2].

$$\Delta G_\eta^{\neq} = RT \ln \frac{\eta}{\eta_0} \tag{1}$$

$$\Delta H_\eta^{\neq} = R \frac{d \ln \frac{\eta}{\eta_0}}{d\left(\frac{1}{T}\right)} \tag{2}$$

$$\Delta S_\eta^{\neq} = \frac{\Delta H_\eta^{\neq} - \Delta G_\eta^{\neq}}{T} \tag{3}$$

(1) və (2) ifadələrinə daxil olan η_0 parametri Eyrinq nəzəriyyəsinə görə [3]

$$\eta_0 = \frac{N_A h \rho}{M} \tag{4}$$

düsturu ilə təyin edilmişdir. (1)-(4) ifadələrində η və ρ kəmiyyətləri uyğun olaraq T mütləq temperaturunda məhlulun dinamik özlülüyü və sıxlığı, R-universal qaz sabiti, N_A -Avoqadro ədədi, h -Plank sabiti, M-məhlulun molyar kütləsidir.

Məhlulda KBr-in parsial molyar həcmi ($\tilde{V}$) [1, 3]

$$\tilde{V} = V_m + (1-x)\left(\frac{\partial V_m}{\partial x}\right)_{p,T} \tag{5}$$

düsturu ilə təyin olunur. Burada V_m-məhlulun molyar həcmi olub,

$$V_m = \frac{M}{\rho} = \frac{\sum x_i M_i}{\rho} \qquad (6)$$

düsturu ilə hesablanır.

Maddənin İQ oblastda udma spektrində OH valent rabitəsinin rəqs tezliyinin sürüşməsi ilə hidrogen rabitəsinin enerjisi (E_H) və uzunluğu (R_H) arasındakı əlaqə İoqansen [4] tərəfindən aşağıdakı kimi təklif olunmuşdur:

$$-E_H = \frac{18\ \Delta\nu}{720 + \Delta\nu} \qquad (7)$$

$$R_H = 2{,}44 \cdot \left(-E_H\right)^{-0.2} \qquad (8)$$

Burada $\Delta\nu = \nu_0 - \nu$ olub, ν -bağlı OH valent rabitəsinin rəqs tezliyi, ν_0 –isə sərbəst OH valent rabitəsinin rəqs tezliyidir. Ədəbiyyat mənbələrinə [5] istinad edərək göstərmək olar ki, su üçün ν_0=7062sm^{-1}. Qeyd edək ki, (7) və (8) ifadələri ilə təyin olunan hidrogen rabitəsinin enerjisi və uzunluğunun vahidi müvafiq olaraq *kkal/mol* və *Å*-ə uyğundur.

ALINMIŞ NƏTİCƏLƏRİN MÜZAKİRƏSİ

Su-KBr sisteminin özlü axınının aktivləşmə parametrlərinin ($\Delta G_\eta^{\neq}$, $\Delta H_\eta^{\neq}$, $\Delta S_\eta^{\neq}$) müxtəlif temperaturlarda konsentrasiyadan (x) asılılıqları 1-3 saylı şəkillərdə göstərilmişdir.



Şəkil 1. KBr-in sulu məhlulunun müxtəlif temperaturlarda özlü axınının aktivləşmə entalpiyasının konsentrasiyadan asılılığı. 1- 283,15 K, 2 -303,15 K, 3 - 333,15 K.

Şəkil 1-dən göründüyü kimi, baxılan temperatur və konsentrasiya intervalında $\Delta G_\eta^{\neq}$ götürülmüş konsentrasiyada temperaturun artması ilə azalır, konsentrasiyasının artmasi ilə isə kiçik temperaturlarda (283.15-313.15 *K*) əvvəlcə azalır, sonra artır, nisbətən böyük temperaturlarda (318.15-333.15 *K*) isə yalnız artır. $\Delta G_\eta^{\neq}(x)$ asılılığında müşahidə olunan minimum temperaturun artması ilə nisbətən kiçik konsentrasiyalara tərəf sürüşür. Belə ki, $\Delta G_\eta^{\neq}(x)$ asılılığında müşahidə olunan minimum 283.15 *K* temperaturda konsentrasiyanın $x \approx 0{,}04$, 313.15 *K* temperaturda isə konsentrasiyanın $x \approx 0{,}01$ qiymətinə uyğun gəlir.



Şəkil 2. KBr-in sulu məhlulunun müxtəlif temperaturlarda özlü axınının aktivləşmə Gibbs enerjisinin konsentrasiyadan asılılığı: 1- 283,15 K, 2 -303,15 K, 3 - 333,15 K.



Şəkil 3. KBr-in sulu məhlulunun müxtəlif temperaturlarda özlü axınının aktivləşmə entropiyasının konsentra siyadan asılılığı. 1- 283,15 K, 2 - 303,15 K, 3-333,15 K

Şəkil 2 və 3-dən göründüyü kimi, baxılan temperatur və konsentrasiya intervalında $\Delta H_\eta^{\neq}$ və $\Delta S_\eta^{\neq}$ həm temperaturun, həm də konsentrasiyanın artması ilə azalır. Qeyd edək ki, $\Delta H_\eta^{\neq}$ məhlulda yaranan dəyişmələri enerji baxımından, $\Delta S_\eta^{\neq}$ isə struktur baxımından xarakterizə edir [1, 6, 7]. Belə ki, konsentrasiyanın artması ilə $\Delta H_\eta^{\neq}$-in artması sistemin daha möhkəm struktura malik olmasını, $\Delta S_\eta^{\neq}$-in artması isə sistemin daha strukturlaşmış hala keçməsini göstərir. Məlumdur ki, temperaturun artması məhlulda mövcud olan bütün qarşılıqlı təsirləri zəiflədir, bu da öz növbəsində molekullar arasındakı qarşılıqlı təsir

enerjisinin azalmasına və strukturun dağılmasına səbəb olur. Buna görə də $\Delta H_{\eta}^{\neq}$ və $\Delta S_{\eta}^{\neq}$ parametrləri temperaturun artması ilə azalırlar. Məhlulda KBr-in konsentrasiyasının artması ilə $\Delta H_{\eta}^{\neq}$ parametrinin azalması konsentrasiyasının artması ilə baxılan sistemin molekulları arsındakı qarşılıqlı təsir enerjisinin azalmasını göstərir. Çox güman ki, buna səbəb K^+ və Br^- ionlarının nisbətən kiçik hidratlaşma enerjisinə malik olmasıdır. Qeyd edək ki, 25°C temperaturda K^+ və Br^- ionlarının hidratlaşma enerjiləri uyğun olaraq -338,58kC/mol, -317,68kC/mol -dur [8]. Məhlulun konsentrasiyasının artması ilə $\Delta S_{\eta}^{\neq}$ parametrinin azalması isə onu göstərir ki, konsentrasiyanın artması ilə baxılan sistemin strukturu dağılır.

Su-KBr sistemində su molekulları ilə K^+ və Br^- ionları arasında qarşılıqlı təsir prosesi baş verir ki, bu da suya nisbətən məhlulun həcmi xassələrinin dəyişməsinə səbəb olur. Məhlulun həcmi xassələri onun komponentlərinin parsial molyar həcmləri ilə xarakterizə olunur. Su-KBr sistemində müxtəlif temperaturlarda məhlulda KBr-in parsial molyar həcminin ($\tilde{V}$) konsentrasiyadan (x) asılılığı şəkil 4-də göstərilmişdir.



Şəkil 4. KBr-in sulu məhlulunda müxtəlif temperaturlarda KBr-in parsial molyar həcminin konsentrasiyadan asılılığı: 1- 283,15 K, 2- 303,15 K, 3- 333,15 K

Şəkil 4-dən göründüyü kimi, baxılan temperatur və konsentrasiya intervalında $\tilde{V}$ həm temperaturun, həm də konsentrasiyasının artması ilə artır. Məlumdur ki, i-ci komponentin parsial molyar həcmi verilmiş tərkibli sistemə həmin komponentdən 1 mol əlavə etdikdə həcmin dəyişməsinə bərabərdir [9, 10]. Suyun strukturunun Nemeti və Şeraqi modelinə [11] görə su hidrogen rabitəsilə birləşmiş müxtəlif ölçülü klasterlərdən və klasterlər arası sərbəst su molekullarından ibarətdir. Klasterlər kvazistruktura malikdirlər və onların ölçülərinin artması ilə su daha strukturlaşmış hala keçir. Temperaturun artması ilə klasterlərin ölçüsü kiçilir, çünki klasteri təşkil edən molekulların sayı azalır və bunun nəticəsində kiçik ölçülü klasterlərin, o cümlədən, sərbəst molekulların sayı artır. Suda hidrogen rabitələri kooperativ xarakterə malik olduğundan klasterlərin ölçüsünün böyüməsilə hidrogen rabitəsinin enerjisi artır, əksinə klasterlərin ölçüsünün azalması ilə hidrogen rabitəsinin enerjisi azalır [12]. Buradan belə nəticəyə gəlmək olar ki, böyük ölçülü klasterlərin fəzadakı həcm payı, bölündükdə onun ayrı-ayrı hissələrinin fəzadakı həcm payları cəmindən kiçik olur. K^+ və Br^- ionları mənfi hidratlaşmaya malik olduğundan onların suyun strukturuna təsirini temperaturun təsiri kimi təsəvvür etmək olar. Beləliklə, konsentrasiyasının artmasi ilə məhlulda KBr-in parsial molyar həcminin artması suyun strukturunun dağılmasını göstərir.

Məlumdur ki, sulu məhlullarda struktur xüsusiyyətlərini öyrənən metodlardan biri də İQ-spektroskopiya metodudur. Belə ki, məhlulların İQ oblastda udma spektrlərinin tədqiqi hidrogen rabitələrini kəmiyyətcə xarakterizə etmək üçün olduqca böyük əhəmiyyətə malikdir [13, 14, 15]. Qeyd edək ki, sulu məhlullarda OH qruplarının valent rəqslərinin tezliyinin əsas tezliklər oblastında tədqiqi, maye suda İQ-şüaların güclü udulması üzündən çətinləşir. Buna görə də sulu məhlulların İQ-spektrləri əsasən oberton oblastında (7300-5000 sm^{-1}) təyin edilir [13, 14]. Müxtəlif konsentrasiyalarda KBr-in suda məhlulunun İQ oblastda udma spektrləri şəkil 5-də göstərilmişdir.



Şəkil 5. Müxtəlif konsentrasiyalarda KBr-in suda məhlulunun İQ oblastda udma spektri. 6862.00-su, 6911.78-10%, 6939.91-20%, 6947.25-30%, 6948.16-35%

Şəkil 5-dən göründüyü kimi konsentrasiyadan asılı olaraq KBr-in sulu məhlulunun İQ oblastda udma spektrinin forması, intensivliyi və tezliyi dəyişir. Sözsüz ki, bu tədqiq olunan sistemdə yaranan struktur dəyişmələri ilə əlaqədardır. KBr-in konsentrasiyasının artması ilə məhlulun İQ oblastda udma spektrinin nisbətən böyük tezliklərə tərəf sürüşməsi KBr-in suyun mövcud strukturunu dağıtması nəticəsində baş verir. Məhlulların İQ-spektrinin tədqiqinə əsasən baxılmış konsentrasiyalarda su molekulları arasındakı hidrogen rabitəsinin enerjisi və uzunluğu hesablanmışdır (Cədvəl).

Cədvəl.

KBr-in suda məhlulunda müxtəlif konsentrasiyalarda su molekulları arasındakı hidrogen rabitəsinin enerjisi (E_H) və uzunluğu (R_H)

$c,\%$	x	ν, sm^{-1}	$-E_H, \frac{kC}{mol}$	$R_H \cdot 10^{10}, m$
0	0	6862.00	16,3	1,86
10	0,01654	6911.78	13,0	1,94
20	0,03647	6939.91	10,9	2,01
30	0,06093	6947.25	10,3	2,04
35	0,07537	6948.16	10,3	2,04

Cədvəldən göründüyü kimi, KBr-in konsentrasiyasının artması ilə məhluldakı su molekulları arasındakı hidrogen rabitəsinin enerjisi azalır, uzunluğu isə artır. Deməli suda KBr-in miqdarının artması ilə suyun strukturu müvafiq olaraq dağılır.

Beləliklə su-KBr sisteminin tədqiq olunan temperatur və konsentrasiya intervalında özlü axın və həcmi xassələrinin, həmçinin İQ oblastda udma spektrlərinin təhlili onu deməyə imkan verir ki, məhlulda KBr-in konsentrasiyası artdıqca, suyun strukturu dağılır.

[1] *E.Ə. Məsimov, B.G. Paşayev, H.Ş. Həsənov.* Bakı Universitetinin Xəbərləri, Fizika-riyaziyyat elmləri seriyası, 2010, № 3, s.109-116.

[2] *Э.А. Масимов, Г.Ш. Гасанов, Б.Г. Пашаев.* Журнал физической химии, 2013, том 87, № 6, с. 969–972.

[3] *С. Глесстон, К. Лейдлер, Г. Эйринг.* Теория абсолютных скоростей. М.: Изд-во иностр. лит., 1948. 600 с.

[4] Водородная связь. Сборник статей. Изд. «Наука» Москва 1981. с.112-155.

[5] *J.D. Worley, I.M. Klotz.* J. Chem. Phys. 1966. v.45. p.2868.

[6] *А.А.Тагер.* Физикохимия полимеров. Издательство «Химия», Москва 1968. с. 251–467.

[7] *Г.М. Дакар, Е.Ю. Кораблева.* Журнал физ. химии, 1998, т.72, №4, с.662-666.

[8] *И.Н. Годнев, К.С. Краснов, Н.К. Воробьев, В.Н. Васильева, В.П. Васильев, В.Л. Киселева, К.Н. Белоногов.* Физическая химия. Издательство «Высшая школа», 1982, с.672.

[9] *E.Ə.Məsimov, H.Ş. Həsənov.* “Bioloji sistemlərin termodinamikası”, Bakı, 2007, 411 s.

[10] *P. Atkins, De Paula.* J. Physical chemistry. Oxford University Press. 2006. 1067 p.

[11] *G. Nemethy, H. Scheraga.* J. Chem. Phys., 1962, v.36, №12, p. 3382-3417.

[12] *M. Chaplin.* Water Structure and Behavior. http://www.lsbu.ac.uk/water/chaplin.html. South Bank University, London 2008, 576 p.

[13] Вода в полимерах: Пер. с анг. (Под ред. *С.Роуленда*). М.;Мир, 1984. с. 50-78.

[14] *А.В. Карякин, Г.А. Кривенцова.* Состояние воды в органических и неорганических соединениях. Издательство «Наука» Москва 1973. 176с.

[15] *Г.В. Юхневич.* Инфракрасная спектроскопия воды. Издательство «Наука» Москва 1973. 208 с.

E.A. Masimov, B.G. Pashayev, H.Sh. Hasanov, Ch.I. Ibrahimov

THE STRUCTURE FEATURES OF THE SYSTEM WATER-KBr

The structural features of aqueous solutions of KBr are studied by means of viscosimetry, picnometry, and IR spectroscopy within the temperature range of 283.15-333.15 K and a concentration range of 0.01-0.07 (mol.part). The results from our experiments are used to calculate the parameters of viscous flow activation, the partial molar volume of KBr in the solution, and the energies and lengths of the hydrogen bonds between water molecules. The concentration dependences of these parameters are analyzed. Based on the obtained results, we conclude that KBr disrupts the structure of water.

Э.А. Масимов, Б.Г. Пашаев, Г. Ш. Гасанов, Ч.И. Ибрагимов

СТРУКТУРНЫЕ ОСОБЕННОСТИ СИСТЕМЫ ВОДА-KBr

В работе методами вискозиметрии, пикнометрии и ИК-спектроскопии изучены структурные особенности водных растворов KBr в интервале температур 283,15-333,15 K и концентраций мольных доли 0.01-0.07. Результаты проведенных экспериментов использованы для вычисленя активационных параметров вязкого течения, парциального мольного объема KBr в растворе, энергии и длины водородных связей между молекулами воды и проанализированы концентрационные зависимости этих параметров. Полученные результаты свидетельствуют о том, что KBr разрушает структуру воды.

Qəbul olunma tarixi: 11.06.2014

HƏRƏKƏTİN KVANT İNTEQRALLARI METODU VƏ QEYRİ-STASİONAR ŞREDİNGER TƏNLİYİNİN DƏQİQ HƏLLƏRİ

R. Q. AĞAYEVA
Azərbaycan MEA-nın Fizika İnstitutu
AZ 1143, Bakı, H. Cavid pr,.131

Hərəkətin kvant inteqrallarının köməyi ilə vaxtdan asılı olan maqnit sahəsindəki yüklü zərrəcik üçün faktorizasiyanın klassik metodu işlənmışdır. Bu metod baxılan qeyri-stasionar sistem üçün Şredinger tənliyinin dəqiq həllərini tapmağa imkan verir.

PACS: 03.65. -w
Açar sözlər: faktorizasiya metodu, hərəkətin kvant inteqralları.

[1] işində tezliyi vaxtdan asılı olan birölçülü harmonik ossilyatorunun timsalında göstərilmişdir ki, klassik faktorizasiya metodunu (KFM) [2] hərəkətin kvant inteqralları metodunu cəlb etməklə qeyri-stasionar sistemlər üçün də inkişaf etdirmək olar [3]. Bu işin məqsədi eyni məsələni başqa qeyri-stasionar sistem üçün, məsələn, vaxtdan asılı olan maqnit sahəsindəki yüklü zərrəcik üçün həll etməkdir.

KMF çərçivəsində dəyişən maqnit sahəsində yüklənmiş zərrəciyə baxaq. Vektor-potensialı aşağıdakı şəkildə seçək:

$$\vec{A}(\vec{r},t)=\frac{1}{2}\left[\vec{H}(t),\vec{r}\right], \tag{1}$$

burada $\vec{r}$ - koordinat, $\vec{H}(t)$ isə bircins maqnit sahəsidir. Tutaq ki, Z oxu maqnit sahəsi boyunca yönəldilmişdir, onda $A_Z = 0$. Buna görə də Z oxu boyunca hərəkət trivialdır, və onu nəzərə almamaq olar. Biz xy müstəvisindəki hərəkətə baxacağıq. Belə sistemin hamiltonianı

$$\hat{H}=\frac{1}{2m}\left[\left(\hat{p}_x+\frac{e}{c}A_x\right)^2+\left(\hat{p}_y+\frac{e}{c}A_y\right)^2\right] \tag{2}$$

şəklindədir, burada $A_x=-H(t)\,y/2$, $A_y=H(t)\,x/2$, $e=|e|$.

Belə sistem üçün yaranma və məhv olma operatorları məlumdur [4]:

$$\hat{A}^-(t)=f(t)\left[\varepsilon(t)\left(\hat{p}_x-i\hat{p}_y\right)+i\,m\,\dot{\varepsilon}(t)(y+ix)\right]\Big/(2\hbar m)^{1/2} \tag{3}$$

$$\hat{B}^-(t)=f^*(t)\left[\varepsilon(t)\left(i\hat{p}_x-\hat{p}_y\right)-im\,\dot{\varepsilon}(t)(x+iy)\right]\Big/(2\hbar m)^{1/2}, \tag{4}$$

Burada m elektronun kütləsidir, $\varepsilon(t)$ funksiyası klassik ossilyator üçün tənliyin müəyyən həllidir:

$$\ddot{\varepsilon}+\omega^2(t)\varepsilon=0, \tag{5}$$

$$f(t)=\frac{1}{\sqrt{2}}\exp\left(i\int_0^t\omega(\tau)d\tau\right), \tag{6}$$

$$\omega(t)=eH(t)/2mc \tag{7}$$

vaxtdan asılı olan tezlikdir.

Aşağıdakı kommutasiya münasibətləri mövcuddur:

$$[\hat{A}^-,\hat{A}^+]=[\hat{B}^-,\hat{B}^+]=1,\quad [\hat{A}^-,\hat{B}^-]=[\hat{A}^-,\hat{B}^+]=0\ . \tag{8}$$

(3) və (4) operatorları $\left(i\hbar\frac{\partial}{\partial t}-\hat{H}\right)$ operatoru ilə kommutasiya edir, və buna görə də hərəkət inteqrallarıdır.

(5) və (8) düsturlarından istənilən zamanın anı üçün doğru olan aşağıdakı bərabərlik alınır:

$$\dot{\varepsilon}\varepsilon^* - \dot{\varepsilon}^*\varepsilon = 2i \ . \qquad (9)$$

$$\hat{K} = \hat{A}^+\hat{A}^- + \frac{1}{2}, \quad \hat{L} = \hat{B}^+\hat{B}^- + \frac{1}{2} \qquad (10)$$

düsturlarına əsasən $\hat{K}$ və $\hat{L}$ operatorlarını daxil edək.

Asanlıqla görmək olar ki,

$$\left[i\hbar\frac{\partial}{\partial t} - \hat{H}, \hat{K}\right] = 0, \quad \left[i\hbar\frac{\partial}{\partial t} - \hat{H}, \hat{L}\right] = 0, \quad [\hat{K}, \hat{L}] = 0, \qquad (11)$$

yəni $\hat{K}$, $\hat{L}$ hərəkət inteqrallarıdır. Deməli, $\left(i\hbar\frac{\partial}{\partial t} - \hat{H}\right)$, $\hat{K}$ və $\hat{L}$ operatorları ümumi məxsusi , funksiyalar sisteminə malikdir. Buradan belə bir nəticəyə gəlmək olur ki, baxılan qeyri-stasionar sistemin dalğa funksiyasını $\hat{K}$ və $\hat{L}$ operatorlarının məxsusi qiymətləri məsələsini həll etməklə tapmaq olar:

$$\hat{K}\psi = k\psi \qquad (12)$$

$$\hat{L}\psi = l\psi \qquad (12')$$

Başlanğıc koordinatları və impulsları [3] mənasını daşıyan aşağıdakı hərəkət inteqrallarını quraq [4]:

$$\hat{X}_0 = \frac{1}{\sqrt{2}}\left(\hat{A}^- + \hat{A}^+\right) \qquad (13)$$

$$\hat{P}_{0x} = \frac{i}{\sqrt{2}}\left(\hat{A}^+ - \hat{A}^-\right) \qquad (14)$$

$$\hat{Y}_0 = \frac{1}{\sqrt{2}}\left(\hat{B}^- + \hat{B}^+\right) \qquad (15)$$

6

$$\hat{P}_{0y} = \frac{i}{\sqrt{2}}\left(\hat{B}^+ - \hat{B}^-\right) \qquad (16)$$

Asanlıqla aşağıdakı bərabərlikləri yoxlamaq olar:

$$\hat{K} = \left(\hat{X}_0^2 + \hat{P}_{0x}^2\right)/2 \qquad (17)$$

$$\hat{L} = \left(\hat{Y}_0^2 + P_{0y}^2\right)/2 \qquad (18)$$

$\hat{X}_0$, P_{0x}, $\hat{Y}_0$, $\hat{P}_{0y}$ Ermit operatorlarıdır. Buna görə də onların məxsusi qiymətlərinin həqiqi olması irəli gəlir, bu da (17) və (18) ifadələrinin məxsusi qiymətlərinin aşağıdan məhdud olmasına gətirir: $k \geq 0$, $l \geq 0$. Bu bizə (12) və (12') məsələlərinin həlli üçün KMF-i tətbiq etmək hüququnu verir.

Əsas hala, yəni baxılan operatorun məxsusi qiymətlərinin ən kiçik olduğu hala aid olan kəmiyyətləri "0" indeksi ilə işarələməyi şərtləşək. Onda $\hat{K}$ operatorunun məxsusi qiymətlərini və məxsusi funksiyalarını təyin etmək üçün KMF-dən istifadə edərək (bax: [1]) taparıq:

$$k_n = n + \frac{1}{2}, \quad \psi_K \sim \psi_n = (\hat{A}^+)^n \psi_0, \qquad (19)$$

burada n = 0,1, 2,... və

$$\hat{A}^-\psi_0 = 0 \qquad (20)$$

Analoji olaraq, KMF-in (12') tənliyinə tətbiqi $\hat{L}$ operatorunun məxsusi qiymətlərinə və məxsusi funksiyalarına gətirir:

$$l_m = d + \frac{1}{2}, \quad \psi_L \sim \psi_d = (\hat{B}^+)^d \psi_0, \qquad (21)$$

burada $d = 0, 1, 2, \ldots$ və

$$\hat{B}^-\psi_0 = 0 \qquad (22)$$

(20) və (22) ifadələrdən ψ_0-i asanlıqla müəyyən etmək olar:

$$\psi_0 = C \exp\left[im\,\dot{\varepsilon}\left(x^2 + y^2\right)/2\hbar\varepsilon\right] \qquad (23)$$

$\hat{K}$ və $\hat{L}$ operatorları ümumi məxsusi funksiyalar sisteminə malik olduğundan, ψ_K (19) və ψ_L-nın (21) şəklindən aydındır ki, eyni zamanda $\hat{K}$ və $\hat{L}$ operatorların məxsusi funksiyası olan funksiya aşağıdakı şəkildə olmalıdır:

$$\psi_{nd}(t) = C(\hat{A}^+)^n(\hat{B}^+)^d\psi_0 \qquad (24)$$

C əmsalı $\psi_{nd}(t)$-nin normalaşdırılması şərtindən təyin edilir:

$$C = \left(\pi\hbar n!d!\right)^{-1/2} m^{1/2} |\varepsilon|^{-1} \qquad (25)$$

Digər tərəfdən, qeyd edildiyi kimi, $\psi_{nd}(t)$ yüklü zərrəciyin qeyri-stasionar maqnit sahəsində hərəkəti haqqında baxılan məsələsinin dalğa funksiyası olacaq.

Müəllif işə diqqətinə görə prof. F.M. Haşımzadəyə təşəkkürünü bildirir.

[1] *R. G. Agayeva*. Fizika, 2002, v.8, № 4, p. 62-63.
[2] *E. Schrödinger.* Proc. R. Irish Acad. A 1940, v.46, p. 9-16; 1940, v.46, p. 183-206; 1941, v.47, p. 53-54.
[3] *И.А. Малкин, В.И. Манко*. Динамические симметрии и когерентные состояния квантовых систем. М., Наука, 1979, 320 с. (Rus dilində).
[4] *R. G. Agayeva*. J. Phys. A: Math. Gen. 1980, 13, 1685-1699.

R.G. Aghayeva

QUANTUM INTEGRALS OF THE MOVEMENT AND EXACT SOLUTIONS OF THE NON-STATIONARY SCHRÖDINGER EQUATION

By means of quantum integrals of movement the classical method of factorisation has been developed for the charged particle in the time-dependent magnetic field. The given method allows determining exact solutions of the Schrödinger equation for considered non-stationary system.

Р.Г. Агаева

МЕТОД КВАНТОВЫХ ИНТЕГРАЛОВ ДВИЖЕНИЯ И ТОЧНЫЕ РЕШЕНИЯ НЕСТАЦИОНАРНОГО УРАВНЕНИЯ ШРЁДИНГЕРА

С помощью квантовых интегралов движения разработан классический метод факторизации для заряженной частицы в зависящем от времени магнитном поле. Данный метод позволяет определять точные решения уравнения Шредингера для рассматриваемой нестационарной системы.

Qəbul olunma tarixi: 19.06.2014

ELEKTRON VƏ DEŞİK KEÇİRİCİLİKLİ YARIMKEÇİRİCİLƏRİN MÜXTƏLİF SƏPİLMƏ MEXANİZMLƏRİNDƏ YARANAN ELEKTRİK RƏQSLƏRİ

E.R. HƏSƏNOV, B.Z. ƏLİYEV
AMEA Fizika İnstitutu,
Gəncə Texnologiya Universiteti,
BDU

Elektron və deşik keçiricilikli yarımkeçiricilərdə müxtəlif səpilmə mexanizmlərinin hesabına yaranan rəqslərin statik və dinamik olma xarakterləri müəyyən edilmişdir. Yaranan rəqslərin tezlikləri və amplitudları analitik olaraq hesablanmışdır. Rəqslərin başlanğıc amplitudu tapılmışdır. Başlanğıc amplitudun qiymətindən asılı olaraq rəqslərin dayanıqlı və dayanıqsız olması təyin edilmişdir.

Açar sözlər: elektron və deşik keçiricilikli yarımkeçiricilər, səpilmə mexanizmləri.
PACS: 72.20.Ht, 72.80.Cw.

[1-3] işlərində elektron və deşik tip keçiriciliyə malik yarımkeçiricilərdə, xarici elektrik sahəsinin təsiri ilə yaranan cərəyan rəqslərinin tezlikləri və amplitudları nəzəri olaraq tətqiq edilmişdir. Məlumdur ki, qüclü xarici elektrik sahəsində (yəni yükdaşıyıcıların elektrik sahəsində olan qreyf sürətləri ϑ_d, kristalda yayılan səs dalğalarının S sürətindən böyük olanda $\vartheta_d \geq S$) yükdaşıyıcıların səpilmə mexanizmi mürəkkəbdir və aydındır ki, birqiymətli deyil. Cərəyan yaradan yükdaşıyıcıların yürüklüklərinin xarici elektrik sahəsindən asılılığı, kristalın temperaturundan asılı olaraq çox kəsgin dəyişir və hətta səpilmə akustik fononlardan, optik fononlardan, sıfırıncı rəqslərdən olmaqla, qarışıq mexanizmlərdən də ola bilir. Yükdaşıyıcıların yürüklüklərinin xarici elektrik sahəsindən asılılığı elektrik sahəsindən alınan enerjinin qəfəsə verilməsindən asılı olaraq, səpilmə mexanizmi dəyişir. Əgər enerjinin itmə sürəti ε^m (m-sabit ədəddir) kimidirsə, onda enerjinin zamana görə orta dəyişməsi [4]

$$\left\langle \frac{d\varepsilon}{dt} \right\rangle = R_3(\varepsilon)^M \quad \text{kimi yazıla bilər.} \tag{1}$$

Yükdaşıyıcıların yürüklükləri

$$\mu = \frac{e\tau}{m} \quad \text{olduğundan} \tag{2}$$

Olunduğundan (e-elementar yük, m-kütlə, τ-səpilmə zamanıdır)

$$\mu = R_1\langle \varepsilon^n \rangle \tag{3}$$

kimi yazıla bilər.

(3) yazılışı yükdaşıyıcıların paylanma funksiyaları Maksvel-Bolsman və

$$f = A(E)e^{-\varepsilon^n} g(E) \tag{4}$$

kimi olduqda da doğrudur.

Xarici elektrik sahəsindən alınan enerji gücü, enerjinin itirilmə gücünə bərabər olanda, yəni

$$\left\langle \frac{d\varepsilon}{dt} \right\rangle = e\mu E^2 \tag{5}$$

Stasionar hal qərarlaşır.
(1-5) ifadələrini nəzərə alsaq

$$eR_2\langle \varepsilon \rangle^n E^2 - R_3\langle \varepsilon \rangle^m = 0 \tag{6}$$

alırıq.

$$\tau \sim \varepsilon^n \quad və \quad \mu = R_2\langle \varepsilon \rangle^n$$

Olduğundan (6) ifadəsindən

$$\mu = R_2\left(\frac{eR_2}{R_3}\right)^{\frac{n}{m-n}} \cdot E^{\frac{2n}{m-n}} \tag{7}$$

alırıq. n və m ədədləri yükdaşıyıcıların səpilmələri müxtəlif mənbələrlə olduqda yürüklüyün elektrik sahəsindən asılılığı müxtəlif olur. Əgər elektron və deşiklərin yürüklüklərini elektrik sahəsinin kvadratının funksiyası kimi sıraya ayırsaq

$$\mu_{\mp} = \left(1 + 2\frac{dln\,\mu_{\mp}}{dln\,E_0^2} \cdot \frac{\vec{E}\cdot\vec{E}_0}{E_0^2}\right) = \mu_{\mp}^0\left(1 + \varphi_{\mp}\frac{\vec{E}\cdot\vec{E}_0}{E_0^2}\right) \tag{8}$$

kimi yaza bilərik, (burada $\mu_{\mp}^0$)-elektronların və deşiklərin sabit elektrik sahəsindən asılı olan yürüklükləri;

$$\varphi_{\mp} = 2\frac{dln\,\mu_{\mp}}{dln\,E_0^2}$$

sabit əmsalıdır). (7) və (8) ifadələrindən görünür ki, n və m ədədlərinin qiymətlərindən asılı olaraq $\varphi_{\mp}$ sabitinin qiyməti müxtəlifdir. [4] ədəbiyyatında n və m ədədlərinin qiymətləri müxtəlif səpilmə mexanizmləri üçün araşdırılmışdır.

1. Əgər yükdaşıyıcılar yalnız akustik fononlardan səpilirlərsə n=-1/2; m=3/2 olur.
2. Əgər səpilmə sıfırıncı rəqslərdən olursa n=-1, m=3/2 olur.
3. Əgər səpilmə qeyri-polyar optik fononlardan və akustik fononlardan olursa n=-1/2, m=$\frac{1}{2}$ olur.

Belə səpilmə mexanizmlərindən başqa səpilmə prosesləri də mümkündür. [4] ədəbiyyatında belə səpilmə mexanizmləri ətraflı şərh olunub. Bizim bu nəzəri işimizdə əsas məqsəd, elektron və deşiklərdən ibarət yükda-

şıyıcıların xarici güclü elektrik sahəsində yaratdıqları cərəyan rəqslərinin tezliklərini və amplitudlarını yuxarıda səpilmələr olanda analitik hesablamadan ibarətdir. Qeyd etmək lazımdır ki, xarici dövrədə cərəyan rəqsləri yaranda (yəni xarici dayanıqsızlıq olanda) xətli yaxınlaşma metodu yaramır. Yəni cərəyan rəqslərini xarakterizə edən tənliklər sistemi qeyri-xətli diferensial tənliklərdir və onların həll olunması aşağıda izahını verdiyimiz metodla olmalıdır.

Qeyri xətli diferensial tənliklərin həll olunmasının riyazi metodunun şərhindən əvvəl elektron və deşik keçiricikli yarımkeçiricilərdə cərəyan rəqslərini xarakterizə edən tənliklər sistemini yazaq.

ƏSAS TƏNLİKLƏR

Elektron və deşiklərdən ibarət iki tip keçiriciliyə malik yarımkeçiricilərdə yükdaşıyıcıların rekombinasiya (tutulma) və qenerasiya (buraxılma) prosesləri olmayanda kəsilməzlik tənlikləri və Puasson tənliyi aşağıdakı kimidir [5]

$$\frac{\partial n_-}{\partial t} + div\left[n_-(E)\mu_-(E)\vec{E} + D_-\vec{\nabla}n_-\right] = 0 \qquad (9)$$

$$\frac{\partial n_+}{\partial t} + div\left[n_+(E)\mu_+(E)\vec{E} - D_+\vec{\nabla}n_+\right] = 0 \qquad (10)$$

$$div\vec{E} = \frac{4\pi e}{\varepsilon}(n_+ - n_- + N_0) \qquad (11)$$

(9-11) tənliklərində n_- -elektronların, n_+ -deşiklərin konsentrasiyaları, $\mu_-(E)$ -elektronların, $\mu_+(E)$ -deşiklərin yürüklükləri, D_- -elektronların diffuziya əmsalı, D_+ -deşiklərin diffuziya əmsalı, e-elementar müsbət elektrik yükü, E-elektrik sahəsinin intensivliyi, ε-mühitin dielektrik nüfüzluluğu, N_0-tarazlıq halında neytrallıq təmin edən mərkəzlərin konsentrasiyasıdır. Yuxarıda şərh olunan məqsədə nail olmaq üçün (9-11) qeyri-xətli diferensial tənliklər sistemi birgə həll olunmalıdır. Əgər kristal daxilində yüklərin xarici sabit elektrik sahəsinin təsiri ilə qeyri-bərabər paylanması kiçik fluktuasiya xarakterlidirsə, yəni

$$\vec{E} = \vec{E}_0 + \vec{E}', \quad \vec{E}' << \vec{E}_0, \quad n_\pm = n_\pm^0 + n_\pm', \quad n_\pm' << n_\pm^0 \qquad (12)$$

şərtləri ödənirsə, onda nümünə daxilində yaranan dalğalar yalnız daxildə yayılır və xarici dövrədə cərəyan rəqsi yaranmır. Cərəyan rəqsləri (12)-şərti pozulduqda yəni $\vec{E}'$ və $\vec{E}_0$, $n_\pm'$ və $n_\pm^0$ qiymətləri ixtiyarı olduqda 9-11 tənlikləri qeyti-xətli olduğundan rəqs tam harmonik olmur. Belə rəqslərin tezlik və amplitudlarını müəyyən etmək üçün (9-11) qeyri-xətli diferensial tənlikləri başka metodla həll olunmalıdırlar. Qeyri-xətli diferensial tənliklərin asimtotik riyazi həll metodunun biri Van-der-Pol metodudur. Bu metodun qısa şərhini aşağıda göstərəcəyik. Rəqsi hərəkəti xarakterizə edən Van-der-Pol tənliyi aşağıdakı kimidir

$$\frac{\partial^2 r}{\partial t^2} + \omega_0^2 r = \beta\phi\left(r, \frac{dr}{dx}, \frac{dr}{t}\right) \qquad (13)$$

(13)-tənliyində r ölçüsüz dəyişən parametr, $\beta<<1$ olan kiçik parametr, $\phi\left(r, \frac{dr}{dx}, \frac{dr}{t}\right)$ Sonlu funksiya, ω_0 -harmonik rəqsin tezliyidir. Əvvəlcə (9-11) - tənliklər sistemini (13) Van-der-Pol tənliyi şəklinə gətirək

$$r = \frac{\vec{E}'}{E_0^{\rightarrow}} \text{ işarə etsək}$$

İşarə etsək (9-11) tənliklərini aşağıdakı kimi yaza bilərik

$$\frac{\partial n_-'}{\partial t} + \frac{\partial}{\partial x}\left[\vartheta_- n_-^0 A_-\left(1 + \frac{n_-'}{n_-^0}\right)\right] + D_-\frac{\partial^2 n_-'}{\partial x^2} = 0$$

$$\frac{\partial'}{\partial t} + \frac{\partial}{\partial x}\left[\vartheta_+ n_+^0 A_+\left(1 + \frac{n_+'}{n_+^0}\right)\right] + D_+\frac{\partial^2 n_+'}{\partial x^2} = 0$$

$$\frac{\partial E'}{\partial x} = \frac{4\pi e}{\varepsilon}(n_+' - n_-') \qquad (14)$$

(14) – tənliklər sistemində $\vartheta_\mp = \mu_\mp E_0$ elektron və deşiklərin dreyf sürətləri,

$$A_- = (1 + r)(1 + \varphi_- r); \qquad A_+ = (1 + r)(1 + \varphi_+ r)$$

(14) – sistem tənlikləri bir ölcüdə yazılıb, yəni x-oxu boyunca cərəyan rəqsləri tətqiq olunur. (14)- tənliklər sistemini operator şəklində aşağıdakı kimi yazaq

$$\left[\frac{\partial}{\partial t} + \vartheta_- n_-^0 \frac{\partial A_-}{\partial x}\vartheta_- A_- \frac{\partial}{\partial x} + D_-\frac{\partial^2}{\partial x^2} n_-'\right] = -\vartheta_- n_-^0 \frac{\partial A_-}{\partial x} \qquad (15)$$

$$\left[\frac{\partial}{\partial t}+\vartheta_+ n_+^0\frac{\partial A_+}{\partial x}\vartheta_+ A_+\frac{\partial}{\partial x}-D_+\frac{\partial^2}{\partial x^2}n_+^{'}\right]=-\vartheta_+ n_+^0\frac{\partial A_+}{\partial x} \tag{16}$$

$$\frac{\partial E^{'}}{\partial x}=\frac{4\pi e}{\varepsilon}(n_+^{'}-n_-^{'}) \tag{17}$$

(15)-ci tənlikdən $n_-^{'}$, 16-cı tənlikdən $n_+^{'}$ uyğun operatorlar şəklində 17-ci tənlikdə yerinə yazılaraq aşağıdakı van-der-Pol tipli tənliyi alırıq.

$$\frac{\partial^2 r}{\partial t^2}+\omega_0^2 r=\beta\phi\left(r,\frac{dr}{dx},\frac{dr}{dt}\right) \tag{18}$$

(18) tənliyində $\beta=\frac{\mu_+}{\mu_-}\ll 1$,

$$\omega_0^2=\vartheta_-\vartheta_+(2+\varphi_+)k^2-D_+\vartheta_- k^3+D_-\vartheta_+(1+\varphi_+)k^3+D_-\vartheta_+ k^3-$$

$$-k^4 D_- D_+ +\frac{4\pi k}{\varepsilon}\left(\sigma_+\vartheta_- +\sigma_-\vartheta_+\right)+\frac{4\pi}{\varepsilon}\sigma+D_-(1+\varphi_+)k^2-$$

$$-\sigma_- D_+\frac{4\pi}{\varepsilon}(1+\varphi_-)k^2;\quad \sigma_+=en_+^0\mu_+^0;\quad \sigma_-=en_-^0\mu_-^0$$

(18)-tənliyi $r=e^{kx}F_1 cos\Psi$; $e^{kx}F_1=F$; $\Psi=\omega_0 t+\theta$ şərtində alınıb *F(t)*-zamanın funksiyası olan amplitud θ- başlanğıc fazadır.

$$\phi=A_1 F sin\Psi+A_2 F cos\Psi+A_3 F^2 sin\Psi cos\Psi+A_4 F^2 cos^2\Psi+$$

$$+A_5 F^3 sin\Psi cos^2\Psi+A_6 F^3 cos^3\Psi+A_7 F^4 cos^4\Psi+A_8 F^5 cos^5\Psi+A_9 F^6 cos^6\Psi \tag{19}$$

$$A_1=\frac{1}{\beta}\left\{k\vartheta_-\omega_0+(D_- -D_+)k^2\omega_0+\frac{4\pi\omega_0}{\varepsilon}[\sigma_+(1+\varphi_+)+\sigma_-(1+\varphi_-)]\right\}$$

$$A_2=-\frac{4\pi k}{\varepsilon\beta}(\sigma_+\vartheta_- +\sigma_-\vartheta_+)(2+2\varphi_-\varphi_+ +3\varphi_- +3\varphi_+)$$

$$A_3=2k\vartheta_-\omega_0(1+\varphi_+)+\frac{1}{\beta}\left[k\vartheta_-\omega_0(1+2\varphi_-)+\frac{8\pi\omega_0}{\varepsilon}(\sigma_+\varphi_+ +\sigma_-\varphi_-)\right]$$

$$A_4=\frac{2D_+ k^2 k\vartheta_-}{\beta}(1+\varphi_-)-2D_- k^2 k\vartheta_-(1+5\varphi_+)++\frac{4\pi}{\varepsilon\beta}\times$$

$$\times[4k^2(\sigma_+\varphi_+ D_- +\sigma_-\varphi_- D_+)-(\sigma_+\vartheta_- +\sigma_-\vartheta_+)k(6\varphi_-\varphi_+ +3\varphi_- +3\varphi_+)]$$

$$A_5=k\vartheta_-\omega_0\left(7\varphi_+ +\frac{3}{\beta}\right)\varphi_-$$

$$A_6=-k^2\vartheta_-^2(3+4\varphi_- +7\varphi_+ +8\varphi_-\varphi_+)+\frac{3D_+ k^2 k\vartheta_-}{\beta}\varphi_- 3\varphi_+ k^2 D_- k\vartheta_-$$

$$A_7=-k^2\vartheta^2(1+4\varphi_- +6\varphi_+ +13\varphi_-\varphi_+) \tag{20}$$

$$A_8=-k^2\vartheta^2(2\varphi_- +\varphi_+ +10\varphi_-\varphi_+)$$

$$A_9=-k^2\vartheta^2-2\varphi_-\varphi_+$$

A_1-A_9 ifadələrini bilərək (18) Van-der-Pol tənliyindən rəqsi hərəkətinin *F* amplitudunun və *ω*-tezliyini hesablamaq üçün diferensial tənliklərin asimtotikasını təyin edən riyazi metodun qisa izahını verək. Rəqsi hərəkəti xarakterizə edən (18) tənliyinin asimtotik yaxınlaşma ilə həllinə baxaq. Əgər kiçik parametr *β=0* olarsa, yəni yükdaşıyıcıla-

rın yürüklüklərini yaradan elektrik sahəsi, (sistem konservativdirsə) rəqs təmiz harmonik olacaq və $\beta=0$ olanda (18) tənliyinin həlli

$$r = F_0 cos\Psi \qquad (21)$$

Olacaq

$$\frac{dF_o}{dt} = 0, \qquad \frac{d\Psi}{dt} = \omega_o, \qquad \Psi = \omega_o t + \theta$$

Sistem konservativ olmayanda (yəni rəqsi dəyişdirən mənbə, elektrik sahəsi olanda $\beta\neq0$). (18) tənliyindəki ani tezlik amplutudun funksiyası olacaq və amplitud azala və arta biləcək. Bunları nəzərə alsaq (18) tənliyinin həllini

$$r = Fcos\Psi + \beta u_1(F,\Psi) + \beta u_2(F,\Psi) + \beta u_3(F,\Psi) + \cdots \qquad (22)$$

kimi axtaraq. Burada u_1, u_2, u_3,... funksiyaları periodikdirlər. F amplitud və Ψ fazası

$$\frac{dF}{dt} = \beta C_1(F) + \beta^2 C_2(F) + \cdots$$

$$\frac{d\Psi}{dt} = \omega_0 + \beta B_1(F) + \beta^2 B_2(F) \qquad (23)$$

tənliklərindən tapılır.

(18)-tənliyin həlli üçün u_1, u_2,..., C_1, C_2,...B_1, B_2, funksiyaları təyin edilməlidirlər. (22)-ifadəsini diferensiallayaraq $\frac{dr}{dt}$, $\frac{d^2r}{dt^2}$ ifadələri tapılır. (23)-tənliklərindən $\frac{d^2F}{dt^2}$ və $\frac{d^2\Psi}{dt^2}$ təyin edilir. Bu ifadələr (18) tənliyində yerinə yazılaraq sağ və sol tərəfdə eyni dərəcəli β ifadələri bərabərləşdirilir. Bu riyazi metod [6] kitabında ətraflı izah olunub. Yuxarıda deyilənlər nəzərə alınmaqla

$$C_1 = -\frac{1}{2\pi\omega_0}\int_0^{2\pi} \phi sin\Psi d\Psi; \quad \omega_1 = \omega_0 - \frac{\beta}{2\pi F\omega_0}\int_0^{2\pi} \phi cos\Psi d\Psi \qquad (23)$$

İfadələri, yəni birinci yaxınlaşmada

$$\frac{dF}{dt} = -\frac{\beta}{2\pi\omega_0}\int_0^{2\pi} \phi sin\Psi d\Psi, \quad \frac{d\Psi}{dt}_1 = \omega_0 - \frac{\beta}{2\pi F\omega_0}\int_0^{2\pi} \phi cos\Psi d\Psi \qquad (24)$$

təyin edilir. (20) ifadələrini nəzərə almaqla (24) inteqralların hesablasaq amplitudu təyin etmək üçün aşağıdakı tənliyi alırıq.

$$\frac{dF}{dt} = -\frac{\beta}{2\omega_0}(A_1F + A_5F^3) \qquad (25)$$

(25)-tənliyinin sağ və sol tərəfini $2F$ həddinə vursaq

$$\frac{dF^2}{F^2\left(\frac{A_1}{A_5}+F^2\right)} = -\frac{\beta A_5}{\omega_0}dt \qquad (26)$$

tənliyini alırıq $u = \left|\frac{A_1}{A_5}\right|$ işarə etməklə (26) tənliyini

$$\frac{dF^2}{u - F^2} + \frac{dF^2}{F^2} = |\alpha|dt$$

kimi yazıb inteqrallayaq, onda

$$F = \frac{F_0 e^{+\frac{\alpha t}{2}}}{u^{1/2}\left[1+\frac{F_0^2}{u}(e^{+\alpha t}-1)\right]^{1/2}} \qquad (27)$$

alırıq. Burada F_0 rəqsin $t=0$ olanda başlanğıc amplituddur. (27)-ifadəsindən görünür ki, başlanğıc amplitud $F_0=0$ olarsa, ixtiyari, t-zamanı üçün $F=0$ və $r=0$ olur. Bu həll (18) Van-der-Pol tənliyinin trivial həllidir. Bu trivial həll statistik rejim olduğunu göstərir, yəni sistemdə rəqsi hərəkət yoxdur. Başlanğıc amplitudun çox kiçik qiyməti monoton olaraq artaraq $F_0 = u^{1/2}$olanda, sistem özü həyəcanlanır və rəqs ixtiyarı zaman $t>0$ anında dinamik rejim

$$r = u^{1/2}cos(\omega_0 t + \theta)$$

olur.

Statik rejimdən fərqli olaraq dinamik rejim güclü dayanıqlığa malikdir, yəni $F_0 = u^{1/2}$olanda ixtiyari $t\to\infty$ anında stasionar rəqs yaranır. Bu nəticələr yalnız birinci asimptotik yaxınlaşmada doğrudur. Rəqsin tezliyini, yəni (24) ifadəsindəki $\omega = \frac{d\Psi}{dt}$ hesablayaq. ϕ funksiyasının (19) ifadəsini (20) əmsallarını nəzərə almaqla $\frac{d\Psi}{dt}$ (24) ifadəsində yerinə yazıb inteqrallasaq, aşağıdakı ifadəni alırıq.

$$\frac{d\Psi}{dt} = \omega_1 = \omega_0\left[1 - \left(\frac{A_2}{2} + \frac{A_6F^2}{4} + \frac{A_8}{2}F^4\right)\frac{1}{\omega_0^2}\right] \qquad (28)$$

alırıq.

Qeyd edək ki, triqonometrik sin_{ψ}^{n}, cos_{ψ}^{n} funksiyalarının inteqralları aşağıdakı çevrilmə yolu ilə inteqrallanıb

$$cos^2\alpha = \frac{cos\,2\alpha+1}{2}; \quad sin^2\alpha = \frac{1-cos\,2\alpha}{2} \tag{29}$$

(29) ifadələrinin köməyi ilə sin_{ψ}^{n} və cos_{ψ}^{n} hədləri hesablanır və uyğun inteqrallarda yerinə yazılıb. A_2, A_6, A_8 ifadələrini (28)-də yerinə yazsaq birinci yaxınlaşmada ω_1 tezliyinin

$$\omega_1 = \omega_0 + \Delta\omega \tag{30}$$

$\Delta\omega$ əlavəsini tapırıq. ω_1-tezliyini

$$\omega_1 = \omega_0[1 + f(\varphi_+, \varphi_-, D_+, D_-)] \tag{31}$$

kimi yazsaq $\omega_1$tezliyinin ω_0-tezliyindən az və cox olması $f(\varphi_+, \varphi_-, D_-, D_+,)$ funksiyasının işarəsindən asılı olacaq. φ_+, φ_- yüksəkdaşıyıcıların səpilmə parametrləri olduğundan $\omega_1 = \omega_0 + \Delta\omega$ tezliyinin və

$$r = \frac{F_0 e^{+\frac{\propto t}{2}} cos\,(\omega_1 t+\theta)}{u^{1/2}\left[\frac{F_0^0}{u}(e^{\propto t}-1)\right]^{1/2}} \tag{32}$$

$r = \frac{E'}{E_0}$ parametrlərinin işarəsindən asılıdır.

NƏTİCƏLƏR

(18) Van-der-Pol tənliyi ilə xarakterizə olunan rəqsin (bizim tətqiqi etdiyimiz elektron və deşik tip keçiriciliyə malik yarımkeçiricilərdə xarici elektrik sahəsinin təsiri ilə yaranan rəqslər) birinci yaxınlaşmada ω_1 tezliyi və F amplitudu yükdaşıyıcıların güclü ($\vartheta_d > S$) elektrik sahəsində səpilmə mexanizmindən kəskin asılıdır. Bu asılıqları analitik almaq üçün φ_+ və φ_- səpilmə parametrlərinin müxtəlif səpilmə halında ədədi qiymətləri tapılmalı və 31, 32 ifadələrində yerinə yazılmalıdır. Yəni 31 və 32 ifadələrində olan u və $f(\varphi_+, \varphi_-, D_-, D_+,)$ ölçüsüz funksiyalarının qiymətləri mümkün ola biləcək səpilmə mexanizmlərdə tapılmalıdır.

Qeyd edək ki, səpilmə xarakterləri dəyişdikcə u və f funksiyalarının ədədi qiymətləri müxtəlif olacaq. İndi müxtəlif səpilmə mexanizmləri olanda u və f funksiyasının qiymətlərini tapaq. K-dalğa vektoru nümunənin ölçüsü ilə $k=\frac{2\pi}{L_x}$ olduğundan, diffuziya əmsalı Eynşteyn münasibəti ilə $D_{\pm} = \frac{T}{e}\mu_{\pm}$ tapılarsa

$$\frac{kD_{\pm}}{\vartheta_{\pm}} = 2\pi\frac{T}{eE\ell} \ll 1$$

olduğunu nəzərə almaqla

$$u = \left|\frac{A_1}{A_5}\right| = \frac{1 + \frac{4\pi}{\varepsilon}\cdot\frac{1}{k\vartheta_-}[\sigma_+(1+\varphi_+) + \sigma_-(1+\varphi_+)]}{|7\beta\varphi_+ + 3\varphi_-|}$$

$$\propto = k\vartheta_-\left|7\varphi_+\beta + \frac{3\varphi_-}{\beta}\right| \tag{33}$$

$$f = -\frac{1}{\omega_0^2}\left(\frac{A_2}{2} + \frac{A_6}{4}F^2 + \frac{A_8}{2}F^4\right)$$

alırıq.

(33) ifadələrində φ_+, φ_- səpilmə parametrlərinin qiymətləri müxtəlif səpilmə mexanizmləri olanda yerinə yazılmalıdır. Elektronlar və deşiklər eyni, yaxud müxtəlif səpilmə mexanizmlərinə malik ola bilərlər. Biz u, α, f ifadələrində φ_-və φ_+ parametrlərinin eyni qiymətlərini yazacayıq. φ_-və φ_+ parametrlərinin müxtəlif səpilmə mərkəzləri olanda, n və m ədədlərini nəzərə almaqla hesablamaq mümkündür.

1. Akustik fononlardan səpilmə olarsa $\varphi_+ = \varphi_- = -1/2$ olur və α, u, f parametrləri aşağıdakı kimi olur:

$$\propto = \frac{3k\vartheta_-}{4}; \qquad u = 1 + \frac{2\pi}{\varepsilon}\cdot\frac{\sigma_+ + \sigma_-}{k\vartheta_-};$$

$$f = \frac{k^2\vartheta_-^2}{\omega_0^2}\left[\frac{F^2}{2}(F^2-1) - \frac{\pi}{\varepsilon\beta}\frac{\sigma_+\vartheta_- + \sigma_-\vartheta_+}{k\vartheta_-^2}\right]$$

$$\omega_0^2 = \frac{3}{2}k^2\vartheta_-\vartheta_+ + \frac{2\pi k}{\varepsilon}(\sigma_+\vartheta_- + \sigma_-\vartheta_+) \qquad (34)$$

(34) və (32)-dən görünür ki, $F_0=u^{1/2}$ olduğundan $F=1$ olur və f parametrli mənfi olur. Bu halda rəqsin amplitudu qərarlaşmış stasionar qiymət alır.

Rəqsin tezliyi isə

$$\omega_1 = \omega_0\left[1 - \frac{k}{\omega_0^2}\frac{\pi}{\varepsilon\beta}\sigma_+\vartheta_- + \sigma_-\vartheta_+\right] \qquad (35)$$

Harmonik rəqs tezliyi ω_0-olan haldan azdır.

2. Sıfırıncı akustik rəqslərdən səpilmə olarsa

$$\varphi_+ = \varphi_- = -4/5$$

$$\propto = \frac{12}{5}\cdot\frac{\mu_-}{\mu_+}k\vartheta_-, \quad u = \frac{5}{12}\frac{\mu_+}{\mu_-} \qquad (36)$$

$$f = -\frac{8\pi}{\omega_0^2}\cdot(\sigma_+\vartheta_- + \sigma_-\vartheta_+)k$$

olur. Bu halda ω_1 tezliyi (35) kimi qalır.

3. Səpilmə qeyri-polyar optik fononlardan və akustik fononlardan olsa $\varphi_+ = \varphi_- = -1$ olur.

$$\propto = 3\frac{\mu_-}{\mu_+}k\vartheta_-, \quad u = \frac{1}{3}; \quad f = \frac{k^2\vartheta_-^2}{\omega_0^2} \qquad (37)$$

və tezlik

$$\omega_1 = \omega_0\left(1 + 7\frac{k^2\vartheta_-^2}{\omega_0^2}\right)$$

olur.

Beləliklə, yuxarıda qeyd olunan səpilmə mexanizmləri olduqda elektron və deşik tip keçiriciliyə malik yarımkeçiricilərdə yaranan rəqslərin tezlik və amplitudları üçün analitik ifadələr tapıldı.



Şəkil 1, 2, 3.

Bu analitik ifadələri qrafiki olaraq göstərək. Yuxarıdakı 1, 2, 3 əyrilərindən görünür ki, yaranan rəqslərin tezlikləri yalnız optik səpilmə olduqda artır, bu da o deməkdir ki, optik fononlardan səpilmə daha çox elektrik yüklərinin qeyri-bərabər paylanmasına səbəb olur. Amplutudların başlanğıc qiymətdən $F_0=u^{1/2}$ kənara çıxmasını tapmaq üçün (27) ifadəsinin zamana görə maksimumu və minimum qiymətlərini təyin etmək lazımdır. (Yəni, $\frac{dF}{dt}$ və $\frac{d^2F}{dt^2}$ hesablanmalıdır). Ancaq biz statik və dinamik rəqslərin tezliklərini və amplitudlarını axtardığımızdan $\frac{dF}{dt}$, $\frac{d^2F}{dt^2}$ törəmələrini hesablamağa ehtiyac yoxdur. (27) ifadəsinin zamandan asılılıq qrafikini F_0 başlanğıc amplitud qiymətinin $u^{1/2}$ parametri ilə müqayisəsindən aşağıdakı kimi qura bilərik $y=\alpha t$, $\frac{F_0}{u^{1/2}} = a$ ilə işarə edək. Onda (27) ifadəsini belə yaza bilərik

$$F = \frac{a e^{y/2}}{[1+a^2(e^y-1)]^{1/2}} = \frac{a}{[e^{-y}+a^2-a^2e^{-y}]^{1/2}}$$

Şəkil 4-dən görünür ki, rəqsin başlanğıc amplitud qiymətindən asılı olaraq yaranan rəqslər ya statik olaraq davam edir ($\theta=1$ olanda), dinamik olaraq ($a>>1$ olanda) rəqs statik hala yaxınlaşır, yalnız rəqs $F_0>>u^{1/2}$ başlanğıc qiyməti ilə başlayırsa eksponensial olaraq artır. Amplitudun artması sistemin dayanıqsız olmasıdır. Bu dayanıqsızlıq hal müəyyən zamandan sonra dayanıqlı hala keçməlidir.



Şəkil 4.

[1] The Nonliear Theory of Gunns Effect. *Eldar Rasul oglu Hasanov, Rugiye Kerem kızı Gasımova, Akber Zeynelabidin oglu Panahov and Ali Ihsan Demirel*. Progress of Theoretical Phyesics. Vol 121 N0.3, Marc 2009, pp. 593-601.

[2] Ultzahigh Frequency Generation in GaAs-ture Two-Valley Semiconductors. *E.R. Hasanov, R.K. Gas;mova, A.Z. Panahov and A.I. Demirel.* Adu. Studies Theor. Pheor. Phys. Vol 3. 2009 no 8. 293-298.

[3] High Frequency Energy Radiation of *n*-Tyre Semiconductors at Constant Electric and Macnetic Field. Eldar Rasuloglu Hasanov, Akber Zeynalabdin Panahov and Ali Ihsan Demirel. Adv. Studies Theor. Phys. Vol.7,2013, no 21, 1035-1042.

[4] High field transport in semiconductors. *M.Conwell.* 1967, New York. Pp.225-300

[5] *В.Л. Бонг-Бруевич, И.П.Звягин, Ф.Г.Миронов.* Доменная печь электрическая неустойчивость в полупроводникахт Москва 1972. стр.158-170.

[6] *Н.Н.Боголюбов, Ю.А.Митропольский.* Асимтотические методы в теории нелинейных колебаний. Москва 1963 ГОС. Издат. физ-мат. Стр.407, учеб. пособие.

E.R.Gasanov, B.Z.Aliyev

THE APPEARANCE OF ELECTRIC OSCILLATIONS IN SEMICONDUCTORS OF ELECTRON-HOLE CONDUCTION AT DIFFERENT DISPERSIONS

The dynamic and statistic oscillation characters in electron-hole semiconductor at the presence of different dispersions are defined. The frequencies and amplitudes of appearing oscillations are analytically calculated. The initial amplitudes are found. The conditions of stability and instability of these oscillations are obtained.

Э.Р.Гасанов, Б.З.Алиев

ВОЗНИКНОВЕНИЕ ЭЛЕКТРИЧЕСКИХ КОЛЕБАНИЙ В ПОЛУПРОВОДНИКАХ ЭЛЕКТРОННО-ДЫРОЧНОЙ ПРОВОДИМОСТИ ПРИ РАЗЛИЧНЫХ РАССЕЯНИЯХ.

Определены динамические и статические характеры колебаний в электронно-дырочном полупроводнике при наличии различных рассеяний. Аналитически вычислены частоты и амплитуды возникающих колебаний. Найдены начальные амплитуды. Определены условия устойчивости и неустойчивости этих колебаний.

Qəbul olunma tarixi: 18.05.2014

FOTOHƏSSAS YARIMKEÇİRİCİ HİSSƏCİKLƏRLƏ DİSPERSİYA OLUNMUŞ POLİMER DİELEKTRİKLƏRDƏ AÇIQ DÖVRƏ GƏRGİNLİYİ

N.Ə. SƏFƏROV, S.X. ƏLİYEVA
AMEA, akademik H.Abdullayev adına Fizika İnstitutu, Az-1143 Bakı, H.Cavid prospekti,33
e-mail: sabina.aliyeva55@yahoo.com

Fotohəssas yarımkeçirici hissəciklərlə dispersiya olunmuş polimer dielektriklərin fotoelektrik xassələrini tədqiq edərək göstərilmişdir ki, kompozit materialda CdS-in faiz dərəcəsinin artırılması açıq dövrə gərginliyinin qiymətinin azalmasına səbəb olur.

Açar sözlər: polimer dielektriklər, polimer kompozitlər, fotohəssaslıq, fotoelektretlik, fotovoltaiklik
UOT: 678.027.94-404.8

Son zamanlar yarımkeçirici fotohəssas elementlərin işlənməsi ilə yanaşı olaraq polimer əsaslı yeni nəsl materialların işlənməsinə (yaradılmasına) böyük əhəmiyyət verilir [1-3]. Bu istiqamətdə əsasən üç növ materiallar yaradılmışdır: işığa həssas polimer yarımkeçiricilər, fotohəssas polimer dielektriklər, fotohəssas polimer kompozitlər. Göstərilən üç növ materialların özlərinə məxsus xassələri və tətbiq sahələri vardır. Göstərilən fotohəssas materiallar üçün müəyyən parametrlərin, məsələn, fotohəssaslıq, fotovoltaiklik, fotoelektretlik böyük əhəmiyyət kəsb edir və onların mümkün qədər yüksəldilməsinin texnologiyaları işlənilir. Fotohəssaslıq diapazonunun genişləndirilməsi, sensibilizasiyası, temperaturun fotohəssaslığa təsiri istiqamətində geniş elmi tədqiqat və təcrübi işlər aparılır. Parametrlərin geniş oblastda variasiyası baxımından kompozit fotohəssas materialların böyük imkanları vardır: polimer fazanın, fotohəssas yarımkeçirici disperqatorların və onların müxtəlif elektrofiziki şəraitdə modifikasiyasının mümkünlüyü və polimer matrisa ilə yarımkeçirici fazaların arasında qarşılıqlı təsirlərin məqsədəuyğun variasiyası yeni fotoelektrik materialların yaradılması üçün geniş imkanlar yaradır. Məqalədə əsas məqsəd fotohəssas yarımkeçirici hissəciklərlə dispersiya olunmuş polimer dielektriklərdə fotoelektrik xassələrinin öyrənilməsidir. Fotoelektrik xassələrinin ölçülməsi üçün qurğu şəkil 1-dəki kimi qurulmuşdur.



Şəkil 1.

İlk öncə eksperiment aparmaq üçün 3 ədəd nümunə alınmışdır. Nümunələr CdS və yüksək sıxlıqlı polietilendən hazırlanmışdır. Faiz göstəriciləri aşağıdakı kimidir:

1) 30% CdS+70% polietilen
2) 20% CdS+80% polietilen
3) 40% CdS+60% polietilen

Alınmış nümunələr əsasında açıq dövrə gərginliyinin işıqlanma intensivliyindən asılılığı və müqavimətin işıqlanma intensivliyindən asılılığı öyrənilmişdir. Qrafiklər şəkil 2 və şəkil 3-də göstərilən kimi alınmışdır:



Şəkil 2.



Şəkil 4.

Şəkildən də göründüyü kimi hər üç nümunə üçün gərginliyin işığın intensivliyindən asılılıq qrafikinə nəzər salsaq görərik ki, gərginlik artdıqca işığın intensivliyi də artır. Müqavimətin işığın intensivliyindən asılılıq qrafiki-

nə baxanda aydın olur ki, müqavimət azaldıqca intensivlik artır.

Beləliklə, fotohəssas yarımkeçirici hissəciklərlə dispersiya olunmuş polimer dielektriklərin fotoelektrik xassələrini tədqiq edərək bu nəticəyə gəlmək olar ki, kompozit materialda CdS-in faiz dərəcəsinin artırılması açıq dövrə gərginliyinin qiymətinin azalmasına səbəb olur.

[1] *Н.А. Давиденко, А.А. Ищенко, Л.И. Костенко, Н.Г. Кувшинский, Д.Д. Мысык, Р.Д. Мысык*. Физика и техника полупроводников, 2004, том 38, вып.5

[2] *Н.А. Давиденко, В.Н. Кокозей, И.И. Давиденко, О.В. Нестерова, А.Н. Лопух, Н.Г. Спицына, А.С. Лобач.* Химическая физика. 2007, том 26, №7, с. 80-90.

[3] *А.А. Ищенко.* Строение и спектрально-люминесцентные свойства полимениновых красителей. (Киев, Наук. думка, 1994).

N.A. Safarov, S.X. Aliyeva

CIRCUIT VOLTAGE IN POLYMER DIELECTRICS DISPERSED PHOTOSENSITIVE SEMICONDUCTOR PARTICLES

Investigation of photovoltaic properties of polymer dielectrics dispersed photosensitive semiconductor particles shown that increasing percentages of CdS in the composite circuit voltage decreases.

Н.А. Сафаров, С.Х. Алиева

НАПРЯЖЕНИЯ ХОЛОСТОГО ХОДА В ПОЛИМЕРНЫХ ДИЭЛЕКТРИКАХ, ДИСПЕРГИРОВАННЫХ ПОЛУПРОВОДНИКОВЫМИ ФОТОЧУВСТВИТЕЛЬНЫМИ ЧАСТИЦАМИ

Исследованием фотоэлектрических свойств полимерных диэлектриков, диспергированных полупроводниковыми фоточувствительными частицами показано, что с увеличением процентного соотношения CdS в композиционном материале снижается напряжение холостого хода.

Qəbul olunma tarixi: 27.05.2014

ELEKTRİK SAHƏSİNİN TƏSİRİ İLƏ $CuGaS_2$ MONOKRİSTALINDA YARANAN DÖYÜNƏN CƏRƏYAN

İ. QASIMOĞLU
Azərbaycan MEA-nın H.B.Abdullayev adına Fizika İnstitutu
BakI: şəh. Az-1143 , H. Cavid, 131E-mail:
gasimoglu@yahoo.com

Təcrübədə $CuGaS_2$ monokristalına verilən elektrik sahəsinin təsiri ilə yaranan cərəyanın spektrində döyünmə halı müşahidə olunmuşdur. Elektrik sahəsinin artmasına mütənasib olaraq yaranan rəqslər qruplar şəklində simmetrik olaraq təkrarlanır, cərəyanın qiymətində və spektrin istiqamətində dinamik artım müşahidə olunur. $CuGaS_2$ monokristalı: *p*-tip taraz yarımkeçirici (konpensə olunmuş) və müqaviməti kiçik (*R*=40 Om, *T*=300°K) olduğu üçün keçidlərin valent zonanın yuxarı hissəsi ilə akseptor mərkəzi arasında baş verdiyi bildirilir.

PACS: 61.80.Ed.
Açar sözlər: elektirik sahəsi, döyünən cərəyan, müqavimət, konsentrasiya.

Son illər tədqiqatçılar tərəfindən, almazabənzər quruluşlu yarımkeçiricilərə maraq artmışdır [1]. Həmin qruplara daxil olan birləşmələrin bir qismi $A^1B^{III}C_2^{VI}A^1$ (Cu, Ag), B^{111} (Ga,İn); C^{V1} (S,Se,Te) ümumi formulası ilə ifadə olunur. Onlardan biri də $CuGaS_2$-dir. $A^{11}B^{VI}$ birləşmələrindən olan ZnS-in ikiqat elektron analoqudur. İlk dəfə Xan və əməkdaşları tərəfindən alınmışdır. Rentgen difraksiyası üsulu ilə aydın etmişlər ki, bu sinif birləşmələrin, demək olar ki, hamısı xalkopirit strukturunda kristallaşır və əksəriyyəti, o cümlədən, $CuGaS_2$ *p*-tip keçiriciliyə malikdir [2]. Düzgun kimyəvi quruluşdan kənara çıxmalar keçiriciliyin tipini dəyişmir. İstisna olaraq birləşmələrin bəziləri həm *p*-tip, həm də *n*-tip ola bilər [3]. Monokristallarda güclü ikiqat sınma müşahidə olunmuşdur ki, bu fiziki xassə qeyri-xətti optika üçün xüsusi əhəmiyyətə malikdir [4]. Tədqiqatlar nəticəsində məlum olmusdur ki, obyektlərdə atomlar arasındakı qarşılıqlı təsir zamanı, kovalent qüvvələr üstünlük təşkil edir [5]. Materialların üstün cəhətlərindən biri də ondan ibarətdir ki, bağlı zonanın (qadağan olunmuş zona) daxilində çoxlu sayda energetik səviyyələr mövcuddur. Bunlar passiv və aktiv rekombinasiya mərkəzləri, bir də yapışma mərkəzləridir [6]. Bu birləşmələr düzgün zona quruluşuna malikdir və mütləq ekstremumları, Brüllien zonasının Γ nöqtəsində yerləsir. $A^1B^{111}C_2^{V1}$ birləsmələrində iki mis atomu, iki qallium atomu ilə tetraedr əmələ gətirir, mərkəzdə isə kükürd atomu yerləşir. Zona quruluşunun ümumi mənzərəsi F.Həsimzadə tərəfindən tədqiq olunmuşdur [7].



Şəkil 1. $CuGaS_2$ monokristalında rentgen difraksiya spektri (300°K).

$CuGaS_2$ monokristalının sintezi: dünyada ilk defə iki temperaturlu alışma sintez üsulunun müəllifi C.T. Hüseynov tərəfindən bir saat müddətinə həyata keçirilmişdir. Təcrübəli texnoloqa minnətdarlığımızı bildiririk. Alınmaq üçün xam maddələr havası (10^{-3}mm.c.st tərtibdə) sorulmuş ampulalara doldurulur. Təmizlik dərəcələri aşağidakı

kimidir. Cu-99,999%, Ga-99,9999%, S-99,9999%. Maddələrin yetişdirilməsində Bridjmen-Stokbarqer üsulundan istifadə olunmuşdur. Yuxarı temperatur 1373°K , aşağı temperatur 973°K olmuşdur. Ampula qızdırıcı sistemin içərisinə 4mm/saat sürəti ilə hərəkət etmişdir. Reaksiya 40 saat davam etmisdir. Ampula soyuma və sabitləşmək üçün, söndürüldükdən 8 saat sonra sistemdən çıxarılmısdır. Nümunə ampuladan çıxarıldıqdan sonra səthi (M 14) karbid bor tozu ilə hamarlanmışdır. $HCl+HNO_3$ (1:1) məhlulunda 40 san. müddətinə kənar maddələrdən təmizlənmişdir. Sonra 40 san. distillə olunmuş suda yuyulmuşdur. Qizdırıcıdan 313°K-də 6-saat qurudulduqdan sonra çıxarılmışdır. Nümunənin otaq temperaturunda müqaviməti *R*=40 Om, ölçüləri isə 1x0,5x2 mm^3 tərtibindədir. Rentgen analizi göstərdi ki, aldığımız kristalın parametləri ədəbiyyatda olanlarla uyğunluq təşkil edir (şəkil 1).



Şəkil 2. $CuGaS_2$ monokristalında işığın Raman səpılməsi spektri (300K)

Raman spektrinin nəticələri də təsdiq edir ki, birləşmə düzgün kristallik quruluşa malikdir və yarımkeçiricidir (şəkil 2). Parametirləri isə belədir. *a=b*=5,36Å *C*=10,49 Å fəza simmetiriyası qrupu (42m)-dir.

Mövzunun aktuallığı: Yeni alinmış, az öyrənilmiş mürəkkəb tərkibli maddənin, $CuCaS_2$, fiziki parametirlərinin, praktik tədbiq üçün yararlı olduğu məlumdur. İkiqat analoqu ZnS-in ətraflı şəkildə öyrənilməsinə və praktikada geniş şəkildə tətbiq olunmasına baxmayaraq, $CuGaS_2$ monokristalının elektirik xassələrinin fundamental şəkildə araşdırılmasına böyük ehtiyac duyulur.

Məsələnin qoyuluşu. $CuGaS_2$ monokristalına kənar qüvvələrin (elektirik sahəsinin) təsirindən sonra dislokasiyaların yaranması və hərəkətliliyi hesabına deformasiya baş verir. Bu isə öz növbəsində kimyəvi əlaqənin (kovalent) qırılmasına gətirib çıxarır, çünki elastiki deformasiyanın qiyməti, dislokasiyaların miqdarından və hərəkət intensivliyindən asılıdır [8]. Deformasiya zamanı enerjinin yığılması, elektrik yüklərinin boşalmasına gətirib çıxarır [9]. Bu isə öz növbəsində səs və elektirik siqnallarının yayılmasını təmin etmiş olur. Biz bu siqnalları tədqiq etməklə atomlar arasında baş verən proseslərin təbiəti haqqında fikir irəli sürə biərik. Bu fiziki parametr, parametrik gücləndiricilərin, detektorların hazırlanmasında istifadə oluna bilər.

Təcrübənin aparılması: Volt-Amper xarakteristikasını ölçmək üçün, nümunəyə gümüş pasta ilə qoyulmuş kontakt, ölçülən temperatur intervalında omikdir. Elektrik sahəsi, nümunəyə sabit cərəyan mənbəyindən verilir (B5-50). Həmin sahə geniş intervalı əhatə edir (1-300v/sm). Hər 10V-dan bir cərəyanın qiyməti, mikrovoltnanoampermetrlə (ф-3017) ölçülür və qeyd olunur. Ölçülər otaq temperaturunda aparılmışdır.

Alınan nəticələrin müzakirəsi: $CuGaS_2$ monokristalında, Volt-Amper xarakteristikasını ölçərkən, sahənin təsiri ilə dinamik artan sabit amplitudları rezonans müşahidə etmiş oluruq (şəkil 3). Spektr 8-xətdən olan, təkrarlanan həndəsi rezonans elementləri paketindən ibarətdir.



Şəkil 3. $CuGaS_2$ monokristalında döyünən cərəyan spektri (300K)

Hər bir paketin, arasında doyma nöqtələrini müşahidə edirik. Bizə elə gəlir ki, bu qeyri-əsas yükdaşıyıcıların tam kompensasiya olması hesabına yaranır [10]. Bu hala uyğun rəqəmlərin tam olması, sabit artması, əlavə bir maraqlı hadisənin baş verdiyini göstərir. (100, 200, 300v). Üçqat birləşmələrin əsas xüsusiyyətlərindən biri, aşqar atomların keçiricilikdə fəal iştirak etməsidir. Bu tip kristallarda defektlərin keçiricilikdə rolu danılmazdır. Makroskopik sxemlərdə rezonans onda alınır ki, xarici sahənin tezliyi ilə rəqs konturunun tezliyi *ώ* üst-üstə düşsün, sabit qalsın [11]. Bu zaman kondensator lövhələri arasında tutumu dəyişməklə konturu idarə etmək olur. Kvant fizikasında isə, xüsusi halda, $CuGaS_2$ monokristalında valent zonanın yuxarısı ilə akseptor mərkəzi arasında mövcud olan tutum, Fermi səviyyəsinin yuxarı və aşağı hərəkəti zamanı dəyişə bilər [12]. Bu isə xarici sahənin qiyməti artdıqca, akseptorların konsentrasiyasında baş verən dəyişmələrdən irəli gəlir. Yəni, konsentrasiyadan asılı olaraq Fermi səviyyəsi tutumu, o isə, öz növbəsində, aktiv müqaviməti dəyişdirir. Müqavimətin dəyişməsi isə sahənin artmasına uyğun cərəyanın qiymətini dəyişdirir. Cərəyanın qiymətinin sabit olaraq artıb-azalması, döyünməsi, gərginliyin və cərəyanın fazasının üst-üstə düşməsindən irəli gəlir, və yekun dalğa sıfıra bərabər olur [13]. Ona görə də deyilən iki səviyyə arasındakı tutum müqaviməti birbaşa xarici sahədən asılı olur. Müqavimətin dəyişməsinə uyğun cərəyanın qiyməti sinisoidal formada dəyişir. Elektirik sahəsinin təsiri ilə yaranan döyünən cərəyanın spektirinin simmetrik təkrarlanması, cərəyanın qiymətində, spektrin istiqamətində dinamik artımın müşahidə olunması cox az təsadüf olunan effektdir, tətbiq üçün maraqlıdır. Sabit elektrik sahənin təsiri ilə yaranan rezonans xüsusi əhəmiyyət kəsb edir.

Yekun nəticə: $CuGaS_2$ monokristalına kənar qüvvələrin, elektirik sahəsinin təsirindən sonra alınan nəticədən

parametrik səs, elektirik gücləndiricilərinin, deteknorların hazırlanmasında istifadə etmək olar. Beləliklə, maşınların, motorların, təyyarələrin hərəkətli hissələrində və hərəkət edən çatların və dislokasiyaların yerdəyişməsi və hərəkəti hesabına meydana çıxan siqnalları qeyd etməklə, metalların işlək hissələrində onların keyfiyyətinə nəzarət mexanizmi qurmağın mümkün olduğunu hesab edirik.

Həmçinin, praktik tətbiq zamanı yer qabığının dərinliklərində baş verən dislokasiyalardan yaranan və ətrafa yayılan seysmik siqnalları qeyd edə bilən cihazların hazırlanmasını da nəzərdə tuturuq [14].

---

[1] *H. Hahn, G. Frank, W. Klinger, A.D. Meyer, G.G. Stroger.* Ianogan, Allgem, chem., 1953, 271, 153.

[2] *B.L. Tell, I. Shay and H. Kasper.* Journal of Appl. Phys., 1972, v. 43, N5.

[3] *G.D. Boyd, H.Mc. Kasper*. JH McFee Quantum Electronics, IEEE Journal of 7 (12), 1971, 563-573.

[4] *L.И. Бергер, Ф.Э.Балневская.* Неорганические материалы том III, 1966, N8. стр 1514-1515.

[5] *А.И. Дирочка, Г.С. Иванова, Л.Н. Курбатов, Е.В. Синицын, Ф.Ф. Харахорин, Е.Н. Холина.* ФТП, 1975, том 9, в. 6, ст.1128-1132.

[6] *Д.Т. Гусейнов, Т.К. Касумов.* Az. Elmlər Akademiyasının Xəbərləri, fizika-texnika və riyaziyyat elmləri seriyası, N6, 1976.ст.105-107.

[7] *Ф.М.Гашимзаде.* ФТТ, 5, 1199,1963; *А.А.Вайнолин, Ф.М. Гашимзаде, Н.А. Горюнова, Ф.П.Касаманлы, Д.Н.Наследов, Э.О.Османов, Ю.В.Рудь*. Изв. АН ССР, сер.физ., 1964, 28, 1085.

[8] *С.А. Ахманова.* Квантовая электроника. М 1969.

[9] *Д.Н. Лангенберг, Д.Дж. Сколалино, Б.Н. Тейлор.* ФТТ.вып.8. 1972 стр.140-155.

[10] *Я.А. Федотов.* Основы физики полупроводниковых приборов. М.1964.

[11] *Р.Г. Родес.* Несовершенство и активные центры в полупроводниках.М.1968.

[12] *М.Косевич.* Основы механики кристаллической решетки. М.1972.

[13] *Ч. Уэрт, Р. Томсон.* Физика твердого тела. М.1966.

[14] *А.Л. Бучаченко.* УФН. 2014, том184.№1 стр 101-108.

I. Kasumoglu

PULSING CURRENT UNDER INFLUENCE OF ELECTRIC FIELD IN $CuGaS_2$ SINGLE CRYSTAL

Pulsing current under influence of electric field in $CuGaS_2$ single crystal was observed. The observed oscillations are repeated symmetrically in groups, current increases dinamically. $CuGaS_2$ single crystal is p-type and compencated semiconductor and the transitions occurrs between the valence band top and acceptor centres by the reason of low resistance (R=40 Om , T=300°K).

И. Касумоглу

ПУЛЬСИРУЮЩИЕ ТОКИ ОБРАЗОВАННЫЕ ПОД ВЛИЯНИЕМ ЭЛЕКТРИЧЕСКОГО ПОЛЯ В МОНОКРИСТАЛЛАХ $CuGaS_2$

Воздействием электрического поля на монокристалы $CuGaS_2$ пропорционально полю наблюдается динамический рост тока. В монокристаллах $CuGaS_2$ низкоомная компенсированная проводимость *p*-типа. По этому, переходы происходят между вершинами валентной зоны и акцепторными уровнями

Qəbul olunma tarixi: 15.07.2014

FİZİKİ TERMİNLƏR VƏ İFADƏLƏR

A.İ. MUXTAROV
BDU, Z. Xəlilov, 23

M.A. MUXTAROV
AMEA-nın Riyaziyyat və Mexanika İnstitutu
Baki şəh., F. Ağayev küç, 9.

T.R. MEHDİYEV, K.B. QURBANOV, E.A. AXUNDOVA, N.A. AXUNDOVA, N.İ. HÜSEYNOVA, S.İ.ƏLİYEVA, E.Ə. ƏLƏSGƏROVA
AMEA, akademik H.M. Abdullayev adına Fizika İnstitutu
Az-1143, Bakı şəhəri, H. Cavid pr.,33.

B

b0001	babbit	babbit	баббит
b0002	Babin kompensatoru	Babinet's compensator	компенсатор Бабине
b0003	Babin teoremi	Babin theorem	теорема Бабина
b0004	Babin-Soleyl kompensatoru	Babin-Soleil compensator	компенсатор Бабина -Солейля
b0005	bağlanma, örtülmə (örtmə), obtürator	shutter	затвор (фотоаппарата), обтюратор (киноаппарата)
b0006	bağlanmış aerostat	captive ballon	привязной аэростат
b0007	bağlanmış nov (oynaq)	enclosed slot	закрытый паз
b0008	bağlayan	flap	закрылок
b0009	bağlı elektrik yükü	bound charge	связанный заряд
b0010	bağlı maqnetizm	connected magnetism	связанный магнетизм
b0011	bağlı uc	closed end	закрытый конец, глухой
b0012	bağlı vibrator	bound dipole	связанный вибратор
b0013	bakda aydınlaşdırma	tank development	проявление в баке
b0014	bakelitlər	bakelites	бакелиты
b0015	Bak-Paşen effekti	Back Pashen effect	эффект Бака-Пашена
b0016	balans modulyatoru	balanced modulator	балансный модулятор
b0017	balansir	balancer	балансир
b0018	balanslı cərəyan sistemi	current balance system	балансная токовая система
b0019	balanslı modulyasiya	balanced modulation	балансная модуляция
b0020	Ball izolyatoru	Ball insulator	изолятор Балля
b0021	ballast lampa, baretter	ballast lamp, baretter, ballast tube	балластная лампа, бареттер
b0022	ballast müqaviməti	ballast resistance	балластное сопротивление
b0023	ballast reostatı	ballast rheostat	реостат балластный
b0024	ballistik dalğa	ballistic wave	баллистическая волна
b0025	ballistik əmsal	ballistic coefficient	баллистический коэффициент
b0026	ballistik əyri	ballistic curve	баллистическая кривая
b0027	ballistik külək	ballistic wind	баллистический ветер
b0028	ballistik metod	ballistic method	баллистический метод
b0029	ballistik ölçü	ballistic measurement	баллистическое измерение
b0030	ballistik ölçü metodu	ballistic measuring method	баллистический метод измерения
b0031	ballistik qalvanometr	ballistic galvanometer	баллистический гальванометр

b0032	ballistik rəqqas	ballistic pendulum	баллистический маятник
b0033	ballistik sabit	ballistic constant	баллистическая постоянная
b0034	ballistik temperatur	ballistic temperature	баллистическая температура
b0035	ballistik uçuş	ballistic flight	баллистический полет
b0036	ballistik üsul	ballistic method	баллистический способ
b0037	ballistika	ballistics	баллистика
b0038	balloelektrik yükü	balloelectrical charge	баллоэлектрический заряд
b0039	Balmer dekrementi	Balmer decrement	бальмеровский декремент
b0040	Balmer düsturu	Balmer formula	формула Бальмера
b0041	Balmer kontiniumu, silsiləsi	Balmer continuum	бальмеровский континуум
b0042	Balmer seriyası	Balmer series	серия (спектральная) Бальмера
b0043	Balmer sıçrayışı	Balmer jump	бальмеровский скачок
b0044	balometrik metod	balometric method	метод болометрический
b0045	balon	bulb	баллон
b0046	balon-zond	weather-balloon	баллон-зонд
b0047	banan diffuziyası	banana diffusion	банановая диффузия
b0048	Banax fəzası	Banach space	банахово пространство
b0049	bar, reaktiv volt-amper	bar; var	бар; вар, вольт-ампер реактивный
b0050	barabanlı lövbər	drum armature	барабанный якорь
b0051	barabanlı reostat	drum rheostat	барабанный реостат
b0052	baroklin modeli	baroclinic model	бароклинная модель
b0053	Barbey iksometri	Barbey ixometer	Барбея иксометр
b0054	Barda birləşdiricisi	Borda's mouthpiece	насадка Барда
b0055	baretter	ballast lamp, baretter	бареттер
b0056	barigiroskop	barium gyroscope	баригироскоп
b0057	barik qradient	atmospheric pressure gradient	барический градиент, градиент давления, барометрический градиент
b0058	barik qradient qüvvəsi	pressure-gradient force	сила барического градиента
b0059	barik sistem	pressure system	барическая система
b0060	barik tendensiya	pressure tendency	барическая, барометрическая тенденция
b0061	barik yal, təpə	pressure ridge	барический гребень
b0062	barimərkəz	barycenter	барицентр
b0063	barimərkəz əksetməsi	barycentric mapping	барицентрическое отображение
b0064	barimərkəz koordinatları	barycentric coordinates	барицентрические координаты
b0065	barion	baryon	барион
b0066	barion yükü, barion ədədi	baryon number	барионный заряд, барионное число
b0067	barium	barium	барий
b0068	barium katodu	barium cathode	бариевый катод
b0069	barium lampası	barium lamp	бариевая лампа
b0070	barium şüşəsi	barium glass	бариевое стекло
b0071	barium titanatı	barium titanate	титанат бария
b0072	Barkhauzen effekti	Barkhausen effect	эффект Баркгаузена
b0073	Barkhauzen düsturu	Barkhausenformula	формула Баркгаузена
b0074	Barkhauzen-Kurs rəqsləri	Barkhausen-Kurz fluctuations	колебания Баркгаузена-Курца
b0075	Barlou çarxı	Barlow's wheel	Барлоу колесо
b0076	barn	barn	барн

b0077	Barnard ulduzu	Barnard star	звезда Барнарда
b0078	Barnet effekti	Barnet effect	эффект Барнета
b0079	Barnet təcrübəsi	Barnet experiment	опыт Барнета
b0080	Barnett effekti	Barnett effect	эффект Барнетта
b0081	baroklin atmosferi	baroclinic atmosphere	бароклинная атмосфера
b0082	baroklin dalğası	baroclinic wave	бароклинная волна
b0083	baroklin dayanıqsızlığı	baroclinic instability	бароклинная неустойчивость
b0084	baroklinlik	baroclinity	бароклинность
b0085	baromanometr	bar manometer	бароманометр
b0086	barometr	barometer	барометр
b0087	barometrdə termometr	attached thermometer	термометр при барометре
b0088	barometrik nivelirləmə	barometric leveling	барометрическое нивелирование
b0089	barometrik boru	barometric pipe, barometer tube	барометрическая трубка
b0090	barometrik düstur	barometric height formula	барометрическая (гипсометрическая) формула
b0091	barometrik hündürlük	pressure altitude	барометрическая высота
b0092	barometrik hündürlük ölçən	pressure altimeter	барометрический высотомер
b0093	barometrik kamera	altitude chamber, pressure chamber	барометрическая камера
b0094	barometrik manometr	barometric manometer	барометрический манометр
b0095	barometrik qradiyent	baric [barometric pressure] gradient	барометрический градиент
b0096	barometrik sabit	barometric constant	барометрическая постоянная
b0097	barometrik sütun	barometrical column	барометрический столб
b0098	asmosfer təzyiqi	atmospheric pressure, atmosphere	атмосферное (барометрическое) давление, атмосфера
b0099	barometrik təzyiq	barometric pressure	барометрическое давление
b0100	baroqraf	barograph	барограф
b0101	baroqramma	barogram	барограмма
b0102	baroskop	baroscope	бароскоп
b0103	barotermoqraf	barothermograph	баротермограф
b0104	barotrop atmosfer	barotropic atmosphere	баротропная атмосфера
b0105	barotrop dalğa	barotropic wave	баротропная волна, баротропное возмущение
b0106	barotrop dayanıqsızlıq	barotropic instability	баротропная неустойчивость
b0107	barotropik model	barotropic model	баротропная модель
b0108	barotropluq	barotropy	баротропность
b0109	baş (əsas) əyrilik mərkəzi	center of principal curvature	центр главной кривизны
b0110	baş (əsas) müstəvi	principal plane	главная плоскость
b0111	baş (əsas) ox	principal axis, major axis	главная ось
b0112	baş deformasiya	principal strain	главная деформация
b0113	baş diafraqma	principal diaphragm	главная диафрагма
b0114	baş diaqonal	principal diagonal	главная диагональ
b0115	baş əyrilik	principal curvature	главная кривизна
b0116	baş fokus	principal focus	главный фокус
b0117	baş kəsik	principal profile	главное сечение
b0118	baş kvant ədədi	principal quantum number, charge number	главное квантовое число
b0119	baş müstəvi (əsas müstəvi)	principal plane	главная плоскость
b0120	baş normal	principal normal	главная нормаль

b0121	baş ox	principal axis	главная ось
b0122	baş siklon (qasırğa, boran)	primary depression	главный циклон
b0123	baş valentlik	principal valency	главная валентность
b0124	baş xətt	head line	главная линия
b0125	başlanğic (çıxış) nuklid	parent rmclide	исходный нуклид
b0126	başlanğıc (sıfırıncı) nöqtənin yerdəyişməsi	zero shift	смещение нулевой точки
b0127	başlanğıc aşağı düşmə (enmə)	initial reduction	понижение начальное
b0128	başlanğıc deformasiya	initial strain	начальная деформация
b0129	başlanğıc elektrik yükü	initial charge	начальный заряд
b0130	başlanğıc faza	initial phase	начальная фаза
b0131	başlanğıc gərginlik	initial stress, initial voltage	начальное напряжение
b0132	başlanğıc hal	initial state, reference state, start state	начальное состояние
b0133	başlanğıc həddd	initial term	начальный член
b0134	başlanğıc kəmiyyət	initial value	начальная величина
b0135	başlanğıc kənara çıxma	initial deviation	начальное отклонение
b0136	başlanğıc maqnit nüfuzluğu	initial permeability	начальная магнитная проницаемость
b0137	başlanğıc məsələ	initial value problem	начальная задача
b0138	başlanğıc nöqtə	starting point, breakover point	начальная точка
b0139	başlanğıc paylanma	initial distribution	начальное распределение
b0140	başlanğıc qiymət	initial value	начальное значение
b0141	başlanğıc şərt	initial condition	начальное условие
b0142	başlanğıc sürət	initial rate	начальная скорость
b0143	başlanğıc sürtünmə	initial friction	начальное трение
b0144	başlanğıc temperatur	initial temperature	первоначальная температура
b0145	başlanğıc təzyiq	initial pressure	начальное давление
b0146	başlanğıc, çıxış nöqtəsi	origin	начало, исходная точка
b0147	başlı sayğac	end-window counter	торцевой счётчик
b0148	basma nasos	inflator, delivery pump, discharge pump, force pump, pressure pump	нагнетательный насос
b0149	batalumlu qetter	batalum getter	баталовый геттер
b0150	batareya lampası	battery tube	батарейная лампа
b0151	batareya, cərəyanın kimyəvi mənbəyi	battery	батарея, химический источник тока
b0152	bataviya damcısı	batavskaya slezka	батавская слезка
b0153	batırılan elektrod	dipping electrode	погружной электрод
b0154	batırılan refraktometr	dipping refractometer	погружной рефрактометр
b0155	batırılan termocüt	immersion thermocouple	погружная термопара
b0156	batoxrom effekti	bathochromic effect	батохромный эффект
b0157	Bauer ventili	Bauer gate	вентиль Бауэра
b0158	Bauşinger effekti	Bauschinger's effect	эффект Баушингера
b0159	Baux transformatoru	Bauh transfomer	трансформатор Бауха
b0160	Baven oxşarı, bənzəri	Baveno twin	Бавенский двойник
b0161	bayt	byte	байт
b0162	bay-u	bai-u	бай-у
b0163	baza	base	база
b0164	baza cərəyanı	base current	базовый ток

b0165	baza diffuziyası	base diffusion	базовая диффузия
b0166	baza elektrodu	base electrode	базовый электрод, электрод базы
b0167	baza mərkəzlənmiş şəbəkə	base-centered lattice	базоцентрированная решетка
b0168	baza müqaviməti	base resistance	базовое сопротивление, сопротивление базы
b0169	baza oblastı	base region	базовая область
b0170	baza qeyd dəftəri	base register	базовый регистр
b0171	baza təbəqəsi	base layer	базовый слой
b0172	baza ünvanı	base address	базовый адрес
b0173	bazanın effektiv qalınlığı	effective base width	эффективная толщина базы
b0174	bazanın qalınlığı (eni)	base width	толщина (ширина) базы
b0175	bazanın qalınlığının (eninin) modulyasiyası	base thickness modulation	модуляция толщины (ширины) базы
b0176	bazanın yükü	base charge	заряд базы
b0177	bazanın zaman sabiti	base time constant	постоянная времени базы
b0178	bazis	basis	базис
b0179	bazis fəzası	base space	базисное пространство
b0180	bazis rənglənməsi	basic coloration	базисная окраска
b0181	bazis vektorları	basic vectors	базисные векторы
b0182	bəbək refleksi	pupillary reflex	зрачковый рефлекс
b0183	bəbək, göz bəbəyi	pupil	зрачок (глазной)
b0184	bədrlənmiş (tam) Ay	full moon	полная Луна , полнолуние
b0185	Bek effekti	Bek effect	эффект Бека
b0186	Bekke zolağı	Becke's line	полоска Бекке
b0187	Bekkerel effekti	Becquerel effect	Беккереля эффект
b0188	Bekkerel qanunu	Becquerel law	закон Беккереля
b0189	Bekkerel şüası	Becquerel ray	луч Беккереля
b0190	Bekman termometri	Bekman thermometer	термометр Бекмана
b0191	Bekman yenidən qruplaşması	Beckmann rearrangement	перегруппировка Бекмана
b0192	Bellini-Tozi antennası	Bellini — Tosi antenna	антенна Беллини -Този
b0193	belonit	belonite	белонит
b0194	bənd	catch	закреп
b0195	Bendorf elektrometri	Bendorf electrometer	электрометр Бендорфа
b0196	Benediks effekti	Benediks effect	эффект Бенедикса
b0197	bənövşəyi fəlakət	violet catastrophe	фиолетовая катастрофа
b0198	bənövşəyi şüa	violet ray	фиолетовый луч
b0199	bənövşəyi yerdəyişmə	blue shift	фиолетовое смещение
b0200	Benson üsulu	Benson method	способ Бенсона
b0201	Benua şkalası	Benua scale	шкала Бенуа
b0202	bənzər bitişmə (qovuşma)	contact twin	двойник срастания
b0203	bənzər cücərmə (göyərmə)	penetration twin	двойник прорастания
b0204	ber	rem	бэр
b0205	Ber funksiyası	Baire function	функция Бэра
b0206	Ber qanunu	peer's law	закон Бера
b0207	bərabər dəyişən sürətli hərəkət	uniformly variable motion	равномерно переменное движение
b0208	bərabər fazalı zona	equiphase zone	равнофазная зона
b0209	bərabər hündürlük	equal altitude	равная высота
b0210	bərabər hündürlüklər metodu	method of equal altitude	метод равных высот

b0211	bərabər közərtmənin interferensiya zolağı	interference fringe of equal inclination	интерференционная полоса равного наклона
b0212	bərabəroxlu kristal	equiaxed crystal	равноосный кристалл
b0213	bərabər paylanma	equidistribution, equipartition, uniform distribution	равное распределение
b0214	bərabər paylanma qanunu	equidistribution law	закон равномерного распределения
b0215	bərabər paylanmış yük	uniformly distributed load	равномерно распределенная нагрузка
b0216	bərabər qalınlıqlı əyrilər	equal-gauge contours	кривые равной толщины
b0217	bərabər qalınlıqlı interferensiya zolağı	interference fringe of equal thickness	интерференционная полоса равной толщины
b0218	bərabərsürətli fırlanma	uniform rotation	равномерное вращение
b0219	bərabər tərəfli üçbucaq	equilateral triangle	равносторонний треугольник
b0220	bərabəryanlı üçbucaq	isosceles triangle	равнобедренный треугольник
b0221	bərabərçiyinli ling	equal-arm	равноплечий рычаг
b0222	bərabərləşdirici	equalizer, leveler	уравнитель
b0223	bərabərləşdirici impuls	equalizing pulse	уравнивающий импульс
b0224	bərabərləşdirici makara	balance coil	уравнительная катушка
b0225	bərabərləşdirici şüşə qab	levelling bottle	уравнительная склянка
b0226	bərabərlik	equality	равенство
b0227	bərabərsizlik	inequality	неравенство
b0228	bərabərsürətli hərəkət	uniform motion	равномерное движение
b0229	bərabəryanlı hiperbola	rectangular hyperbola, equilateral hyperbola	равнобочная гипербола
b0230	bərabəryanlı trapesiya	isosceles trapezoid	равнобочная трапеция
b0231	Berek kompensatoru	Berek compensator	компенсатор Берека
b0232	berillium	beryllium	бериллий
b0233	bərk şüa	hard beam	твердый луч
b0234	bərk bağlanmış nöqtə	death point	мёртвая точка
b0235	bərk cisim	solid	твёрдое тело
b0236	bərk cisim elektronikası	solid-state electronics	электроника твердого тела
b0237	bərk cisim fizikası	solid-state physics	физика твёрдого тела
b0238	bərk cisim lazeri	solid-state laser	твердотельный лазер
b0239	bərk cisim mazeri	solid-state maser	твердотельный мазер
b0240	bərk cisim sxemi	solid-state circuit	твердотельная схема
b0241	bərk cisimlər plazması	solid-state plasma	плазма твёрдых тел
b0242	bərk dielektrik	solid dielectric	твёрдый диэлектрик
b0243	bərk faza	solid phase	твёрдая фаза
b0244	bərk fazada diffuziya	solid diffusion	диффузия в твёрдой фазе
b0245	bərk fazalı polikondensasiya	solid-phase polycondensation	твердофазная поликонденсация
b0246	bərk fazalı polimerizasiya	solid-phase polymerization	твердофазная полимеризация
b0247	bərk fazalı reaksiya	solid-phase reaction	твердофазная реакция
b0248	bərk hal	solid state	твёрдое состояние
b0249	bərk halda həll olunma qabiliyyəti	solid solubility	растворимость в твёрдом состоянии
b0250	bərk həlledici	solid solvent	твердый растворитель
b0251	bərk maddə	solid substance	твёрдое вещество
b0252	bərk məhlul	solid solution	твердый раствор
b0253	bərk oksidləşdirici	solid oxidizer	твёрдый окислитель

b0254	bərk olmayan rotator	nonrigid rotator	нежёсткий ротатор
b0255	bərk sistem	solid system	твердая система
b0256	bərk xəlitə	hard alloy	твердый сплав
b0257	bərk yanacaq	solid fuel	твёрдое топливо
b0258	bərk zərrəcik	solid particle	твёрдая частица
b0259	berkelium	berkelium	беркелий
b0260	bərkidən	hardener	отвердитель, отверждающий реагент
b0261	bərkimə	hardening; solidification	отвердевание, твердение, затвердевание
b0262	bərkimə istiliyi	heat of solidification	теплота затвердевания
b0263	bərkimə nöqtəsi	solidification point, point of fixation	точка затвердевания
b0264	bərkimə temperaturu	solidification temperature	температура затвердевания
b0265	bərkimə zamanı sıxılma	solidification shrinkage	усадка при затвердевании
b0266	bərkimiş şüşə	prestressed glass, tempered glass, toughened glass	стекло закаленное
b0267	bərkitmə nöqtəsi	pinning point	точка закрепления
b0268	bərkitmə temperaturu	hardening temperature	температура твердения, температура затвердевания, температура закалки
b0269	bərkiyən kütlə	induration mass	масса затвердевания
b0270	bərklik	hardness	твердость, жесткость (воды)
b0271	berklium	berkelium	берклий
b0272	bərkliyə nəzərən sınama	hardness test	испытание на твёрдость
b0273	Bernşteyn teoremi	Bernstein's theorem	теорема Бернштейна
b0274	Bernulli ədədi	Bernoulli's number	число Бернулли
b0275	Bernulli tənliyi	Bernoulli equation	уравнение Бернулли
b0276	Bernulli teoremi	Bernoulli's theorem	теорема Бернулли
b0277	bərpa edən	reducing agent	восстановитель
b0278	bərpaedici dalğa	reduction wave	волна восстановления
b0279	bərpa edilmə vaxtı	recovery time	время восстановления
b0280	bərpa edilməmiş antiferromaqnetizm	uncompensated antiferromagnetism	нескомпенсированный антиферрромагнетизм
b0281	bərpa əmsalı	coefficient of restitution	коэффициент восстановления
b0282	bərpa olunma müddəti	building-up time	время нарастания (например, импульса)
b0283	bərpa polyarizasiyası	reduction polarization	поляризация восстановления
b0284	bərpaedici alov	reducing flame	восстановительное пламя
b0285	bərpaedici atmosfer	reducing atmosphere	восстановительная атмосфера
b0286	bərpaedici qüvvə	restoring force	восстанавливающая сила
b0287	bərpaedici zəncir	reducing chain (circuit)	восстановительная цепь
b0288	bərpaedilmə	renewal; recovery	восстановление
b0289	Berqman borusu	Bergman tube	Бергмановская трубка
b0290	Berqman seriyası	Bergman series	серия Бергмана
b0291	berillium yavaşıdıcılı reaktor	beryllium moderated reactor	реактор с бериллиевым замедлителем
b0292	Bertranın oxşarlıq qanunu	Bertran law of similarity	закон подобия Бертрана
b0293	beşbucaqlı	pentagon	пятиугольник
b0294	beşbucaqlı ədədlər	pentagonal numbers	пятиугольные числа
b0295	bəsit maddə	elementary substance	простое вещество
b0296	beşlik sistem	quinary system	пятеричная система

b0297	Bessel bərabərsizliyi	Bessel inequality	неравенство Бесселя
b0298	Bessel funksiyası	Bessel function	функция Бесселя
b0299	Bessel ili	Besselian year	бесселев год
b0300	Bessel tənliyi	Bessel equation	уравнение Бесселя
b0301	Besselin modifikasiya edilmiş funksiyası	modified Bessel function	модифицированная функция Бесселя
b0302	beştəbəqəli diod	five-layer diode	пятислойный диод
b0303	beta-bürünc	beta brass	бета-латунь
b0304	beta-çevrilmə	beta transition	бета-превращение
b0305	beta-çevrilmə elektronu	beta-decay electron	электрон бета-распада
b0306	beta-dağılma	beta decay	бета-распад
b0307	beta-dəmir	beta-iron	бета-железо
b0308	beta-funksiya	beta function	бета-функция
b0309	beta-qalınlıqölçən	beta-ray thickness gauge	бета-толщиномер
b0310	beta-spektr, beta-şüalanma spektri	beta-ray spectrum	бета-спектр, спектр бета-излучения
b0311	beta-spektrometr	beta-ray spectrometer	бета-спектрометр
b0312	beta-spektroskopiya	beta-ray spectroscopy	бета-спектроскопия
b0313	beta-şüalandıran	beta emitter	бета-излучатель
b0314	beta-şüalar spektri	specta of beta rays	спектры бета-лучей
b0315	beta-şüaları	beta rays	бета-лучи
b0316	betatron	betatron	бетатрон
b0317	beta-zərrəcik	beta particle	бета-частица
b0318	Betti ədədi	Betti number	число Бетти
b0319	Betti qrupu	Betti group	группа Бетти
b0320	Betti-Maksvel teoremi	Betty-Maxwell theorem	теорема Бетти-Максвелла
b0321	Beverec antennası	Beveredge antenna	антенна Бевереджа
b0322	Beyer qanunu	Beer law	закон Беера
b0323	beynəlxalq amper	international ampere	международный ампер
b0324	beynəlxalq anqstrem	international Angstroem unit	международный ангстрем
b0325	beynəlxalq metr	international metre	международный метр
b0326	beynəlxalq nümunəvi (əsl) kiloqram	International prototype kilogram	международный прототип килограмма
b0327	beynəlxalq om	international ohm	международный ом
b0328	beynəlxalq şam	international candle	международная свеча
b0329	beynəlxalq simmetriya işarəsi	international symmetry symbol	международный символ симметрии
b0330	beynəlxalq vahid	international unit	международная единица
b0331	beynəlxalq vahidlər sistemi	international system of units	международная система единиц (СИ)
b0332	beynəlxalq vatt	international watt	международный ватт
b0333	beynəlxalq volt	international volt	международный вольт
b0334	beynit	bainite	бейнит
b0335	beynitli çevrilmə	bainite transformation	бейнитное превращение
b0336	Beys teoremi	theorem of Bayes	теорема Бейса
b0337	Beys-Ballo qanunu	Beys-Ballow law	Бейс-Балло закон
b0338	bezmen	steelyard	безмен
b0339	Bezu teoremi	remainder theorem, theorem of remainder	теорема Безу
b0340	bielektroliz	bielectrolysis	биэлектролиз
b0341	bifilyar (iki ipli) asqı	bifilar suspension	подвес бифилярный

b0342	bifilyar dolaq	bifilar winding	бифилярная обмотка
b0343	bifilyar makara	bifilar coi	бифилярная катушка
b0344	bifilyar maqnetometr	bifilar magnetometer	бифилярный магнитометр
b0345	bifilyar sarğı	bifi'lar winding, bifilar coil	бифилярная обмотка
b0346	bifimer asqı	bifidimension suspension	бифимерный подвес
b0347	bifokuslu linza	bifocal lens	бифокальная линза
b0348	biharmonik funksiya	biharmonic function	бигармоническая функция
b0349	bikomplekt mühit	bicomplex medium	бикомплектная среда
b0350	bikonik rupor	biconical horn	биконический рупор
b0351	bikvadrat	biquadrate	биквадрат
b0352	bikvars	biquartz	бикварц
b0353	bilavasitə	direct	непосредственный
b0354	bilavasitə analitik davametmə	direct analytic continuation	непосредственное аналитическое продолжение
b0355	bilavasitə görmə spektroskopu	direct-vision spectroscope	спектроскоп прямого зрения
b0356	bilavasitə hesablama spektrometri	direct-reading spectrometer	спектрометр с непосредственным отсчетом
b0357	bilavasitə kənaraçıxma metodu	direct deflection method	метод непосредственного отклонения
b0358	bilavasitə ölçü	direct measurement	измерение непосредственное
b0359	bilavasitə qarşılıqlı təsir	indirect interaction	непосредственное взаимодействие
b0360	bilavasitə qızdırılan termistor	direct-heated thermistor	термистор с прямым подогревом
b0361	bilavasitə qızdırma	direct heating	непосредственное нагревание
b0362	bilavasitə birləşdirilmiş, bilavasitə əlaqəli	direct coupled	непосредственно соединённый, непосредственно связанный
b0363	bilavasitə seçmə (ayırma)	direct access	непосредственная выборка
b0364	bilavasitə təsir	direct action	непосредственное действие
b0365	bimetallı məftil	bimetallic wire	биметаллический провод
